AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

20 dekabr 2017-ci il | № 89-92 (9183) | www.seanews.az | Qiyməti 50 qəpik


## BU SAYIMIZDA


### İŞƏ QƏBUL MÜSABİQƏSİNDƏ UĞURLU NƏTİCƏ GÖSTƏRƏN DƏNİZÇİLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyat Donanmasında "matros", "motorçu" və "elektrik" peşələri üzrə işə qəbul prosesinin test mərhələsində uğurlu nəticə göstərmiş namizədlərlə görüş keçirilib.*

Səh. 2

### QABAQLAYICI TƏDBİRLƏR NƏTİCƏSİZ QALMIR

Söhbət "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində dənizin neftlə çirklənməsinin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdən gedir



***Okean və dənizlər ətraf mühitin qorunub saxlanılmasında həlledici rol oynayır, dünyanın ekoloji sisteminin balansını təmin edir.***

Səh. 3

### "NEFTÇİLƏRƏ XİDMƏT ETMƏKDƏN QÜRUR DUYURAM"

***Müsahibimiz "General Əsədov" gəmisinin kapitanı Kamil Muxtarovdur.***



**- Kamil müəllim, söhbətimizə sizi tanımaqla başlayaq. Bilirəm ki, Bakıda doğulmusunuz...**

- Bəli, 1956-cı il iyunun 1-də Bakıda anadan olmuşam. Babam dənizçi, atam neftçi olub.

Səh. 4

### "XƏZƏRDƏNİZLAYİHƏ ETİ"-DƏ DAHA İRİ GƏMİLƏRİN LAYİHƏLƏNDİRİLMƏSİ BARƏDƏ DÜŞÜNÜRLƏR

***Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutu ("Xəzərdənizlayihə ETİ") 1930-cu ildən fəaliyyət göstərir.***



İnstitut bərə əlaqəsinin inkişafına böyük töhfələr verib.

Səh. 5

### MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ DƏNİZ NƏQLİYYATININ İNKİŞAFINDA MARKETİNQ ANLAYIŞI



***Hazırda bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən müəssisələrdə, şirkətlərdə və təşkilatlarda satış fəaliyyətini idarə etmək üçün marketinq xidmətlərinin rolu böyükdür.***

Səh. 6

### 2017-Cİ İL FORMULA-1 AZƏRBAYCAN QRAN-PRİSİ İLİN ƏN YAXŞI YARIŞI SEÇİLİB

*2017-ci ildə Bakıda keçirilən Formula-1 yarışı dünyanın aparıcı kütləvi informasiya vasitələrində keçirilmiş sorğularda avtoidman azarkeşləri, media nümayəndələri və "Paddok Klub"un təmsilçilərinin əksəriyyəti tərəfindən mövsümün ən həyəcanlı və ən gözlənilməz anlarla dolu yarışı kimi qiymətləndirilib.*

Baku city circuit

Səh. 8


### Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 sentyabr tarixli 3130 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"nda dəyişikliklər edilməsi haqqında

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 724 nömrəli Fərmanına və "Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 yanvar tarixli 725 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 11 sentyabr tarixli 3130 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1081; 2014, № 4, maddə 391; 2015, № 9, maddələr 989, 1050) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1.5-ci yarımbənddə "Milli Təhlükəsizlik Nazirliyi" sözləri "Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 4.1.5-1-ci yarımbənd əlavə edilsin:

"4.1.5-1. Xarici Kəşfiyyat Xidməti;".

3. 5.3-cü bənddə "Milli Təhlükəsizlik Nazirliyinin" sözləri "Dövlət Təhlükəsizliyi Xidmətinin" sözləri ilə əvəz edilsin.

4. Həmin strategiyaya Əlavə 2 - "Vəzifələrin yerinə yetirilməsi məqsədi ilə qurumlar üçün əsas və dəstək tipli cavabdehlik cədvəli" üzrə:

4.1. 3-cü və 11-ci bəndlərdə "MTN" akronimi "DTX" akronimi ilə əvəz edilsin və "FHN" akronimindən sonra ", XKX" akronimi əlavə edilsin;

4.2. 2-ci, 5-ci, 9-cu, 16-cı və 17-ci bəndlərdə "MTN" akronimi "DTX, XKX" akronimləri ilə əvəz edilsin.



5. "İxtisarlar:" hissəsi üzrə:

5.1. altıncı abzasda "MTN – Milli Təhlükəsizlik Nazirliyi" sözləri "DTX - Dövlət Təhlükəsizliyi Xidməti" sözləri ilə əvəz edilsin;

5.2. yeddinci – on beşinci abzaslar səkkizinci – on altıncı abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci abzas əlavə edilsin:

"XKX – Xarici Kəşfiyyat Xidməti;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 18 dekabr 2017-ci il.

## GƏMİÇİLİK XARİCİ SULARDA FƏALİYYƏTİNİ GENİŞLƏNDİRİR

***2017-ci il dekabrın 19-dən "Gəncə" tankeri xarici sularda maye yükdaşımalarına cəlb olunub.***

Bununla da "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Xəzərdən kənarda üzən gəmilərinin sayı 13-ə çatdırılıb. Onlardan 11-i quru yük gəmisi, ikisi isə tankerdir.

"Gəncə" tankeri ilk yükləmə əməliyyatını Rusiya Federasiyasının Tuapse limanında həyata keçirəcək.

Azov, Qara və Aralıq dənizləri hövzələrində üzəcək tankerin istismarına nəzarəti və texniki xidməti "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Türkiyədəki "Casptankers" şirkəti yerinə yetirəcək.

Dedveyti 7,017 ton, uzunluğu 140.85, eni 16.86 metr olan bu tanker "Volqa-Don-Maks" tipli, yəni, dayaz sularda üzməklə maksimum yükgötürmə qabiliyyətinə malikdir. "Gəncə" gəmisi Gəmiçiliyin xaricdə maye yük daşımaları bazarındakı mövqeyini daha da möhkəmləndirəcək. Həmçinin artması proqnozlaşdırılan maye yüklərin daşınmasını təmin etmək üçün "Gəncə" tipli tankerlərin böyük iqtisadi əhəmiyyəti var. Qeyd edək ki, tanker istismara ötən il Prezident İlham Əliyevin də iştirak etdiyi mərasimdə verilib.




Xatırladaq ki, Gəmiçiliyin xarici sulardakı fəaliyyəti uzun fasilədən sonra 2014-cü ildə Prezident İlham Əliyevin tapşırığına əsasən "Üzeyir Hacıbəyli" və "Natəvan" gəmilərinin alınması ilə bərpa edilib.

## GƏMİÇİLİYİN ƏMƏKDAŞI "BEST ACCOUNTANT 2017" MÜKAFATINA LAYİQ GÖRÜLÜB

***Azərbaycanın Professional Maliyyə Menecerləri Assosiasiyası (APFM) "Mühasib peşəsinin inkişafına verdiyi töhfəsinə görə" Beynəlxalq LUCA mükafatına layiq görülüb.***

Mükafat "8th LUCA AWARD 2017" təntənəli təqdimat mərasimində Böyük Britaniyanın Sertifikatlı Maliyyə Menecerləri İnstitutunun rəhbəri cənab Garry Carter tərəfindən təqdim olunub.

APFM xətti ilə bu dəfəki nümayəndə heyətinin tərkibinə SOCAR, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC və digər şirkətlərin, dövlət qurumlarının nümayəndələri daxil olub. 2017-ci ilin nəticələrinə əsasən Azərbaycan Dövlət Neft Şirkətinin əməkdaşı Oktay





Məmmədov "Best Financial Manager 2017", "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Maliyyə və uçot departamentinin rəis müavini Pərviz Babazadə "Best Accountant 2017" mükafatına layiq görülüb.

Bu mükafat onlara iş fəaliyyətlərində göstərdikləri peşəkarlığa, vəzifə öhdəliklərinin yerinə yetirilməsində şəxsi bilik və bacarıqlarına görə verilib.

Xatırladaq ki, APFM 2005-ci ildə təsis olunub. 2013-cü ildə Assosiasiya ilk dəfə beynəlxalq üzvlük sisteminin tətbiqinə başlayıb. "FİNANSİST" jurnalının təsisçisidir. Hazırda Avropanın Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) üzvüdür.

## 2018-Cİ İLDƏ AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNDA 4 FAİZLİK ARTIM GÖZLƏNİLİR

***Yaxın gələcəkdə Azərbaycanın inkişaf perspektivləri müsbətdir. 2018-ci ildə dövlət investisiya xərclərinin və sosial xərclərin genişləndirilməsi ilə qeyri-neft sektorunda 4 faizlik artım gözlənilir.***

Bu barədə Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə missiyasının rəhbəri Məhəmməd əl-Qorçi mətbuat üçün bəyanatında bildirib.




2018-ci il üzrə IV Maddə Məsləhətləşmələri çərçivəsində müzakirələr aparmaq üçün noyabrın 30-dan dekabrın 14-dək Bakıda səfərdə olan Beynəlxalq Valyuta Fondunun missiyasına rəhbərlik edən Məhəmməd əl-Qorçi açıqlamasında qeyd edib ki, 2017-ci ildə aparılan fəal makroiqtisadi siyasət və neft qiymətlərinin artımı sayəsində Azərbaycan iqtisadiyyatında sabitləşmə müşahidə edilib. Qeyri-neft sektoru xidmət və kənd təsərrüfatı sahələrinin canlanması sayəsində genişlənməyə başlayıb.

Açıqlamada, həmçinin qeyd edilir ki, işsizlərə müavinətlərin verilməsi üçün yaradılan yeni sığorta fondunun, pensiyalarla bağlı həyata keçirilən islahatların, fəal əmək bazarı proqramlarına keçidin Azərbaycanda sosial müdafiə sahəsində və əmək bazarında müsbət irəliləyişlərə səbəb olub.

Bəyanatın sonunda missiya adından açıq və səmimi müzakirələr, qonaqpərvərlik üçün Azərbaycan tərəfinə minnətdarlıq ifadə edilib.

# ADDA-DA ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏZİZ XATİRƏSİ YAD EDİLİB

*Azərbaycan Dövlət Dəniz Akademiyasında Ulu öndər Heydər Əliyevin anım günü qeyd olunub.*






Akademiyanın professor- müəllim heyəti, tələbələrinin iştirak etdiyi tədbirdə çıxış edən ADDA-nın tədris və tərbiyə işləri üzrə prorektoru Z.Z.Şərifov türk dünyasının böyük oğlu, Ulu öndər Heydər Əliyevin xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğundakı misilsiz xidmətlərindən bəhs edib. Dahi liderin elm, təhsilin inkişafına göstərdiyi əvəzolunmaz rolundan danışan prorektor bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Ulu Öndərin misilsiz həyat fəaliyyətini əks etdirən video-filmin nümayişindən sonra Azərkitab – Kitab Təbliğatı Mərkəzinin layihə rəhbəri Sabir Həsənov çıxış edərək Heydər Əliyev irsinin gənc nəslə çatdırılmasında Mərkəzin rolundan söz açıb.

Daha sonra akademiya tələbələri "Heydər Əliyev və gənclər siyasəti", "Azərbaycan və Heydər Əliyev" mövzularında çıxışlar edərək müasir Azərbaycan gəncinin böyük liderin gənclər siyasətinə sadiqliyini bir daha nümayiş etdiriblər.

Tədbir Leyla Əliyevanın Ulu öndər Heydər Əliyevin əziz xatirəsinə həsr etdiyi "Elegiya"nın nümayişi ilə yekunlaşıb.





# ÜMUMMİLLİ LİDERİN XATİRƏSİ GƏMİÇİLİYİN TÜRKİYƏ NÜMAYƏNDƏLİYİNDƏ DƏ ANILIB

*Ümummilli Lider Heydər Əliyevin xatirəsi "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İstanbulda yerləşən Türkiyə nümayəndəliyində də anılıb.*

Belə ki, nümayəndəliyin işçiləri Ulu Öndərin vəfatının 14-ci ildönümü ilə əlaqədar İstanbulun Sarıyer rayonundakı Heydər Əliyev parkında toplaşıblar. Dahi şəxsiyyətin parkdakı abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb və xatirəsini dərin ehtiramla yad ediblər.

Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətlərini, gəmiçiliyin inkişafına göstərdiyi diqqət və qayğını xatırlayan ziyarətçilər onun dənizçilərin qəlbində hər zaman yaşayacağını bildiriblər.

# İŞƏ QƏBUL MÜSABİQƏSİNDƏ UĞURLU NƏTİCƏ GÖSTƏRƏN DƏNİZÇİLƏRLƏ GÖRÜŞ KEÇİRİLİB

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Dəniz Nəqliyyat Donanmasında "matros", "motorçu" və "elektrik" peşələri üzrə işə qəbul prosesinin test mərhələsində uğurlu nəticə göstərmiş namizədlərlə görüş keçirilib.*










Görüşdə "AXDG" QSC sədrinin birinci müavini Mübariz Cabbarov, İnsan Resurslarının İdarəedilməsi Departamentinin rəisi Sevda Məmmədova, Hüquq departamentinin rəisi Zaur Nağıyev, KSƏTƏMM departamentinin rəisi Ələkbər Əzizli, Donanmanın Texniki İstismar Departamentinin rəisi Balakişi Səfərov, Xəzər Dəniz Neft Donanmasının rəisi Taqət Qurbanov, Dəniz Nəqliyyatı Donanmasının baş mühəndisi Şahid Orucov, DND DÜTX-nin rəisi Elxan Hacıyev, DND DTİX-nin rəisi Mikayıl Osmanov və digər əməkdaşlar iştirak ediblər.

Çıxış edən "AXDG" QSC İnsan Resurslarının İdarəedilməsi Departamentinin rəhbəri Sevda Məmmədova işə qəbul prosesi ilə əlaqədar ətraflı məlumat verib. Bildirib ki, "AXDG" QSC-nin rəsmi internet səhifəsində elan olunmuş "matros", "motorçu" və "elektrik" peşələri üzrə müraciət edən namizədlər arasında 23-24 noyabr 2017-ci il tarixlərində ilk dəfə test imtahanı keçirilib. İmtahanda ümumilikdə 76 nəfər iştirak edib. Onlardan 41-nin göstərdiyi nəticə keçid balından yüksək olub.

Sevda Məmmədova Gəmiçilikdə üzən heyətin karyera inkişafı barədə də danışıb, namizədlərə gələcəkdə idarəetmə səviyyəsində mütəxəssis kimi formalaşmaları üçün tövsiyələr verib.

"AXDG" QSC sədrinin birinci müavini Mübariz Cabbarov gəminin idarə edilməsi üçün texniki biliklərin yüksək səviyyədə olması ilə yanaşı, müasir gəmiçilik standartlarının tam həyata keçirilməsi üçün kompyuter və xarici dil biliklərinin vacibliyini önə çəkib. Qeyd edib ki, təhsil və öyrənmək yalnız universitetlə məhdudlaşmamalı, iş başında olarkən belə hər bir dənizçi istər nəzəri, istərsə də praktiki biliklərini daima təkmilləşdirməyə çalışmalıdır.

Namizədlərə, həmçinin, Gəmiçilikdə ətraf mühitin mühafizəsi ilə bağlı görülən işlərdən də danışılıb. Bildirilib ki, "AXDG" QSC əməkdaşlar, müştərilər və podratçıları üçün, ətraf mühitin mühafizəsi də daxil olmaqla, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılmasını əsas məqsəd kimi qarşıya qoyub.

Xatırladaq ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İnsan Resurslarının İdarəedilməsi Departamenti tərəfindən üzən heyətin işə qəbulunda yeniliyin tətbiqinə başlanılıb. Bundan sonra namizədlərin nəzəri bilikləri işə qəbul prosesinin ilkin mərhələsində test imtahanı vasitəsi ilə yoxlanılacaq. Məqsəd prosesi təkmilləşdirmək və güclü kadr bazası yaratmaqdır.

# "ƏGƏR ƏLLƏR ÇİYİNƏ QOYULUBSA, DEMƏLİ, HƏR ŞEY YAXŞIDIR"



*İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif Twitter səhifəsində maraqlı status yazıb.*

Nazir dekabrın 5-də Moskvada Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin görüşündən çəkilən fotonu paylaşaraq, "Əgər əllər çiyinə qoyulubsa, deməli, hər şey yaxşıdır. Xəzəryanı dövlətlərlə münasibətlərin yaxşı olması İranın xarici siyasətinin prioritetidir" sözlərini yazıb.

Nazir qeyd edib ki, Xəzəryanı dövlətlərin xarici işlər nazirləri İRNA agentliyinin fotomüxbirinin çəkdiyi fotonu yüksək qiymətləndiriblər.

Xatırladaq ki, dekabrın 5-də Moskvada Azərbaycan, İran, Rusiya, Qazaxıstan və Türkmənistan xarici işlər nazirlərinin Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi ilə bağlı Konvensiyanın müzakirə olunması üçün 7-ci iclası keçirilib.

**Rabil Kətanov**

# XƏZƏRYANI DÖVLƏTLƏR SU SƏTHİNİN BÖLGÜSÜ İLƏ BAĞLI SAZİŞ İMZALAYACAQLAR

*Xəzəryanı dövlətlər su səthinin bölgüsü ilə bağlı saziş imzalayacaqlar. Razılaşdırılan Konvensiya layihəsində Xəzərdə su səthinin bölgü prinsipi əksini tapıb. 15 millik suverenlik zonasına dövlətin suverenliyi şamil olunur, dövlətin ərazisi 15 mildə davam edir. 15 mildən sonra 10 mildə balıqçılıq zonası müəyyənləşdirilib. Qalan su səthi ümumi istifadədə olacaq.*



Bu barədə jurnalistlərə açıqlamasında xarici işlər nazirinin müavini Xələf Xələfov bildirib.

Nazir müavini qeyd edib ki, su səthinin bölünməsi ilə bağlı bölgü prinsipləri ayrıca sazişlə razılaşdırılacaq və qəbul olunacaq.

# 5 ÖLKƏNİ BİRLƏŞDİRƏN DOSTLUQ DƏNİZİ

*Xəzər dənizinin hüquqi statusunun həll olunması həm də bu əvəzsiz su hövzəsinin beynəlxalq hüquq normaları çərçivəsində qorunması deməkdir*



Xəzərsahili ölkələrin rəhbərlərinin müxtəlif səviyyələrdə keçirilən ikitərəfli və çoxtərəfli görüşlərində dünyanın ən böyük qapalı su hövzəsinin hüquqi statusu məsələsi ilə bağlı müzakirə və danışıqlar uzun illərdir davam edir.

Vaxtaşırı keçirilən görüşlər, irəli sürülən təşəbbüslər bu istiqamətdə irəliləyişlərlə müşayiət edilsə də, hələlik yekun qərarı qəbul etmək mümkün olmur.

Bu da öz növbəsində Xəzər dənizinin ekologiyasının, bioloji müxtəlifliyinin, ümumilikdə təbii resurslarının qorunmasına, eləcə də sahilyanı ərazilər üçün müəyyən təhlükələrin yaranmasının qarşısının alınmasına əngəl törədir. Ancaq deyəsən, məsələnin həllində işıq ucu görünməyə başlayıb.

Xəbər verildiyi kimi, bu günlər Moskvada Xəzəryanı ölkələrin xarici işlər nazirlərinin 7-ci müşavirəsi keçirilmişdir. İndiyə qədərki sammitlərin və toplantıların davamı olan Moskva müşavirəsində bildirilmişdir ki, Xəzər dənizinin hüquqi statusu ilə bağlı məsələlər son mərhələdədir. Yekun sənədin mətni hazırdır və konvensiyanın Xəzəryanı ölkələrin dövlət başçılarının V sammitində imzalanacağı gözlənilir.

Moskva müşavirəsində iştirak edən Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ölkəmizin mövqeyini bir daha iştirakçı dövlətlərin diqqətinə çatdırmaraq bildirmişdir ki, Xəzərin statusu ilə bağlı bütün görüşlər mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsi, əməkdaşlığın inkişafı, Xəzər regionunun çiçəklənməsi baxımından tarixi əhəmiyyət daşıyır. Azərbaycan tərəfi eyni zamanda, Xəzər dənizinin hüquqi statusu ilə bağlı bütün məsələlərin beynəlxalq təməl prinsipləri əsasında həllini vacib sayır. Xatırladaq ki, Azərbaycan bundan öncə də tərəflərin iştirakı ilə keçirilən bütün görüşlərdə beynəlxalq təməl prinsiplərini əsas tutmuş və hər dəfə ədalətli mövqe ilə çıxış etmişdir. Bu baxımdan, çox müsbət haldır ki, son toplantıda Xəzər dənizinin hüquqi statusu ilə bağlı konvensiyada açıq qalan bütün əsas məsələlərlə bağlı nəticə əldə edilmiş və konvensiyanın mətni hazırlanmışdır.

Sözsüz ki, Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın imzalanması digər istiqamətlərdə də işləri sürətləndirəcək. Hələ 2010-cu ildə Bakıda Xəzəryanı ölkələrin dövlət başçılarının zirvə görüşündə çıxış edən Prezident İlham Əliyev bildirmişdir ki, bizi birləşdirən Xəzər dostluq, əməkdaşlıq dənizidir: "Mən əminəm ki, Xəzəryanı ölkələrin dövlət başçılarının növbəti zirvə görüşü Xəzərdə sülhün, təhlükəsizliyin təmin edilməsi, əməkdaşlığın dərinləşməsi üçün mühüm addım olacaqdır. Ümid edirəm ki, gələcək dövrlərdə bu istiqamətdə əməli nəticələr əldə olunacaqdır".

Məsələ burasındadır ki, Xəzəryanı ölkələrin Tehran, Aşqabad, Bakı, Həştərxan görüşlərində və digər müşavirələrdə Xəzərin hüquqi statusunun həlli istiqamətində müəyyən irəliləyişlər olsa da, tərəflərin konkret ortaq məxrəcə gələ bilməməsindən ən böyük ziyan Xəzərə, onun flora və faunasına, ekologiyasına və təbii sərvətlərinə dəyib. Odur ki, Azərbaycan hər zaman bu əməkdaşlığın mehriban qonşuluq, qarşılıqlı anlaşma və hörmət ruhunda inkişafına səy göstərib, suveren hüquqları nəzərə alınmaqla Xəzəryanı dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsinə tərəfdar çıxıb və Xəzərin mineral ehtiyatlarının mənimsənilməsi üzrə beynəlxalq əməkdaşlığın inkişafını dəstəkləyib. Azərbaycan Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya üzrə bəşərəfli danışıqlar prosesinin fəallaşmasına da töhfə verməyə çalışıb. Son toplantıda isə bu, bir daha təsdiqini tapıb.

Onu da xatırladaq ki, Xəzər həm də fauna və florasının zənginliyinə görə özünəməxsus unikallığı ilə fərqlənir. Lakin bu su hövzəsinin uzun illər çirklənməyə qısmən məruz qalması onun canlı aləminə təsirsiz ötüşməyib. Son məlumatlara görə, çaylar vasitəsi ilə Xəzər dənizinə ildə 75 milyon ton neft tullantıları axıdılır və bunun 95 faizi Volqa çayının payına düşür. Təəssüf ki, 5 ölkə ilə həmsərhəd olan Xəzərə axıdılan tullantıların, çirkli suların onlardan daha çox hansına aid olduğunu dəqiq hesablayan yoxdur. Amma həmin ölkələr arasında ekoloji problemlərin həllinə Azərbaycan qədər vəsait sərf edən ikinci dövlət də yoxdur. Azərbaycan bu illər ərzində istər balıq ovu kvotasının mənimsənilməsi, istər su bioresurslarının artırılması, istərsə də dənizin ekologiyasının qorunmasında xüsusilə fərqlənib. Bu məsələ hələ 2008-ci ildə Azərbaycan, Qazaxıstan, İran, Rusiya, Türkmənistanın nümayəndəliklərinin iştirak etdiyi Aşqabad toplantısında geniş müzakirə olunmuşdu. Təkcə 2010-cu ildə Azərbaycan Prezidenti Xəzərin çirklənməsinin qarşısını almaq məqsədilə iki sərəncam imzalayıb. Ümumilikdə isə ölkəmizdə Xəzər dənizinin canlı aləminin qorunması və ətraf mühitin mühafizəsi ilə bağlı mütəmadi olaraq tədbirlər görülüb və bu tendensiya indi də davam edir.

Xəzərin hüquqi statusunun müəyyən olunması bu sahədə sözsüz ki, digər ölkələri də hərəkətə gətirəcək. Xalqların, dövlətlərin dostluq, əməkdaşlıq rəmzinə çevrilən Xəzər dənizi, onun canlı aləmi 5 ölkənin hər biri tərəfindən mühafizə olunacaq. Ən azından tərəflərin imzaladıqları öhdəliklər qarşılıqlı tərəfdaşlıq şəraitində Xəzər dənizinin qorunmasına da öz töhfəsini verəcək.

**Elnur HADIYEV**

# BEYNƏLXALQ TRANSXƏZƏR NƏQLİYYAT MARŞRUTU ÜZRƏ YENİ RƏQABƏTƏ DAVAMLI TARİFLƏR MÜƏYYƏNLƏŞDİRİLƏCƏK

***Qazaxıstanın paytaxtı Astanada "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin ümumi yığıncağı keçirilib.***

Toplantıda "Azərbaycan Dəmir Yolları"QSC, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, eləcə də Qazaxıstan, Gürcüstan, Türkiyə, Ukrayna və Polşanın dəmir yolu və dəniz daşınmaları ilə məşğul olan rəsmiləri iştirak ediblər.




Tədbirdə "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyi İdarə Heyətində dəyişiklik edilməsi haqqında, Türkiyə Dövlət Dəmir Yollarının (Türkiyənin müvafiq dövlət orqanlarının razılığı əsasında) "Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası Hüquqi Şəxslər Birliyinin üzvlüyünə daxil edilməsi haqqında və digər məsələlər müzakirə olunub.

Müzakirələrdə Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutunun potensialından səmərəli istifadə, bu istiqamətə yük axınının cəlbinin zəruriliyi vurğulanıb. Eyni zamanda rəqabətə davamlı tariflərin müəyyənləşdirilməsi məsələsi də müzakirə predmeti olub.

Qeyd olunub ki, oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsindən sonra Beynəlxalq Transxəzər Nəqliyyat Marşrutuna tranzit axını güclənəcək.

# QARA DƏNİZ ÖLKƏLƏRİ BAKI-TBİLİSİ-QARS DƏMİR YOLU XƏTTİNDƏN FƏAL İSTİFADƏ ETMƏYƏ ÇAĞIRILIB

***Bakı-Tbilisi-Qars dəmir yolu xətti Avropa ilə Asiyanı birləşdirən qısa nəqliyyat dəhlizidir. Qara dəniz ölkələri bu dəmir yolu xəttindən səmərəli istifadə edə bilərlər.***

Bu fikirləri Kiyevdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 37-ci sessiyasında çıxışı zamanı Azərbaycanın xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev deyib.



Nazir müavini deyib ki, Azərbaycan yeni yaratdığı beynəlxalq nəqliyyat dəhlizləri vasitəsilə regional layihələri həyata keçirməyə hazırdır.

"Bakı-Tbilisi-Qars dəmir yolu xətti vasitəsilə Qara dəniz ölkələrinə idxal və ixrac əməliyyatlarını artırmaq olar", - deyə M.Məmməd-Quliyev əlavə edib.

Sessiyada çıxış edən Türkiyə xarici işlər nazirinin müavini Əhməd Yıldız da bildirib ki, Qara dəniz ölkələri Bakı-Tbilisi-Qars dəmir yolu xəttindən istifadə etməklə ticarət dövriyyələrini artıra bilərlər. Türkiyə yeni nəqliyyat infrastrukturu vasitəsilə birgə iqtisadi layihələri həyata keçirməyə hazırdır.

***Emil Hüseynli***

# QABAQLAYICI TƏDBİRLƏR NƏTİCƏSİZ QALMIR

## Söhbət "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətində dənizin neftlə çirklənməsinin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərdən gedir

***Okean və dənizlər ətraf mühitin qorunub saxlanılmasında həlledici rol oynayır, dünyanın ekoloji sisteminin balansını təmin edir. Bu baxımdan, dənizləri qorumaq dünyanı qorumağa bərabərdir.***

Quru yük gəmiləri, tankerlər və bərələr vasitəsilə müxtəlif növ dəniz daşımalarını həyata keçirən, habelə Xəzərin Azərbaycana aid kontinental şelfindəki neftqazçıxarma obyektlərinə nəqliyyat-texnoloji xidmət göstərən və Avropa – Qafqaz – Asiya (TRASEKA) nəqliyyat dəhlizində əlaqələndirici rolunu oynayan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin çoxşaxəli fəaliyyətində ətraf mühitin mühafizəsi əsas davamlı inkişaf meyarlarından biri sayılır.

Cəmiyyətin gəmilərinin və sahil obyektlərinin istismarı zamanı yaranan müxtəlif çeşidli bərk və maye tullantıların, habelə qaz atqılarının su mənbələrinə, qrunta və atmosferə ekoloji təsirlərinin minimuma endirilməsi Gəmiçiliyin rəhbərliyi tərəfindən daim diqqət mərkəzində saxlanılır.

Məsələn, yaradıldığı vaxtdan cəmi 6 ay müddətində Cəmiyyət üçün "Tullantıların İdarə Olunması Planı" tərtib edilərək təsdiq və tətbiq olunmuşdur.

Cəmiyyət üçün könüllü surətdə İSO 9001 (Keyfiyyət menecmenti), İSO 14001 (Ekoloji menecment) İSO 50001 (Enerji səmərəliyi menecmenti) və OHSAS 18001 (Peşə təhlükəsizliyi və əməyin mühafizəsi menecmenti) kimi beynəlxalq idarəetmə standartlarının tələblərinə uyğun tərtib olunmuş "Təhlükəsizliyin Keyfiyyətli İdarəedilməsi Sistemi" isə 2015-ci ilin sonundan tətbiq olunur və bu gün də işləyir.

Qeyd etməliyik ki, Gəmiçilikdə ətraf mühitin müxtəlif çirkləndiricilərdən, o cümlədən neft və neft məhsullarından mühafizəsi tədbirləri ekoloji yönümlü milli və beynəlxalq qanunvericilik aktlarının, o cümlədən Birləşmiş Millətlər Təşkilatının və Beynəlxalq Dəniz Təşkilatının egidası altında qəbul olunmuş konvensiyaların tələbləri və tövsiyyələri nəzərə alınmaqla həyata keçirilir.

Məsələn, Azərbaycan Respublikasının 18 iyun 2004-cü il tarixdən qoşulduğu "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması haqqında" MARPOL 73/78 (Əlavə 1, Qayda 37), habelə "Neftlə çirkləndirmə hallarına hazırlığın təmin edilməsi, bunlara qarşı mübarizə və əməkdaşlıq haqqında" (Maddə 3) 1990-cı il tarixli beynəlxalq konvensiyaların tələblərinə uyğun tərtib olunmuş "Cəmiyyət üçün Fövqəladə və Qəza Hallarında Ekoloji Təhlükəsizlik Proqramı" təsdiq edilərək (206 saylı 24 oktyabr 2014-cü il tarixli əmrlə) Gəmiçilik üzrə qüvvəyə minmişdir.



"Sahil Tədbirlər Planı" hissəsində qəza hallarında lazımi tədbirləri mərkəzləşdirilmiş şəkildə idarə edən fəaliyyət qərargahı səlahiyyətli "Bohran Qrupu" barədə, habelə müvafiq tədbirlərə cəlb olunacaq "İnsan resursları", "Texniki vasitələr və materiallar", "Məlumat qovluqları" ("İstismar -texnoloji", "Üzgüçülük-naviqasiya", "Gəmilər üzrə Texniki", "Sahil Obyektləri üzrə Texniki" və "Kadr" qovluqları), həmçinin "İctimaiyyətin məlumatlandırılması", "Qəza vəziyyəti barədə məlumatın qəbulu", "Maraqlı tərəflərin və səlahiyyətli dövlət strukturlarının rekvizitləri", "Gəmilərlə rabitə əlaqələri", "Qəza halları barədə məlumatın kimlərə və necə verilməsi üzrə Təlimat", "Təlim və məşqlər" və "Neft axıntısının səviyyələri və mübarizə prosedurları" haqqında ətraflı məlumat verilib.

"Cəmiyyət üçün Fövqəladə və Qəza Hallarında Ekoloji Təhlükəsizlik Proqramı" sənədinin "Gəmi Tədbirlər Planı" hissəsində isə Cəmiyyətin balansındakı gəmilərdə "Neft dağılmalarına qarşı gəmi fövqəladə mübarizə planı" sənədinin olması tələbi, həmin tələbin konvension hüquqi-normativ bazası, məqsədi və tərtibat şərtləri barədə məlumat verilib.

Belə ki, dənizdə baş verə biləcək hər hansı bir qəza zamanı ekoloji təhlükəsizliyi təmin etmək, zərərli maddələrin dənizə dağılmasının qarşısını almaq və ekoloji ziyanı minimuma endirmək məqsədilə Beynəlxalq Dəniz Təşkilatının xətti ilə qəbul olunmuş beynəlxalq konvensiyaların, xüsusilə də MARPOL 73/78 konvensiyasının tələbi (Əlavə I, Qayda 37, Bənd 1) əsasında Cəmiyyətin ümumi tutumu 400 registr ton və daha çox olan bütün gəmiləri, habelə ümumi tutumu 150 registr ton və daha çox olan bütün neft daşıyan gəmiləri Dövlət Dəniz Administrasiyası ilə razılaşdırılmış "Neft dağılmalarına qarşı gəmi fövqəladə mübarizə planı" ilə təmin olunub.

***Həmin Plan özündə aşağıdakı məqamları əks etdirir.***

- Neft dağılması zamanı fəaliyyət ardıcıllığının qəbul edilmiş sxemi;
- Məlumatın ötürülməsinə dair tələblər;
- Məlumatın verilməsi zəruriliyi;
- Faktiki tullantı;
- Ehtimal olunan tullantı;
- Tələb olunan məlumat;
- Kimlərlə əlaqə saxlanmalıdır. O cümlədən
- Sahilyanı dövlətlə əlaqə;
- Limanla əlaqə;
- Gəminin istismarçı orqanları ilə əlaqə;
- Gəmidə maraqlı olan təşkilatların əlaqə rekvizitləriəri;
- İstismar zamanı heyətin neftlə çirklənməyə qarşı təcili mübarizə tədbirləri barədə xülasə;
- Atqılara nəzarətin həyata keçirilməsi üzrə tədbirlər. O cümlədən
- İstismar zamanı axıntı;
- Qəza axıntısı;
- İlkin mübarizə;
- Qəza axıntısı nəticəsində heyətin neftlə çirklənməyə qarşı qısa zamanda qəbul edəcəyi qərarlar;
- Gəminin dayanıqlığı və möhkəmliyi haqqında anlayış;
- Yerli və beynəlxalq səviyyələrdə görülən tədbirlərin koordinasiyası;

Həmçinin Əlavə məlumat qismində

- Plan və sxemlər (cizgilər);
- Neft dağılmasına qarşı mübarizə avadanlıqları;
- İctimaiyyətlə əlaqə;
- Qeydiyyatın aparılması;
- Planın tərkibi;
- Planın yoxlanması
- Gəminin fövqəladə mübarizə planına əlavələr
- Gəmidən verilən xəbərlərə qoyulan tələblər haqqında ƏLAVƏ Qətnamə (Qərardad) 137(53)

Məlumatların ötürülmə forması

Xüsusi qeyd olunmalıdır ki, ekoloji təsir nəticəli qəza hallarının baş vermə ehtimallarının identifikasiyası zamanı aşağıdakı səbəblər aşkar edilmişdir:

- ❑ Toqquşma;
- ❑ Saya (qrunta) oturma;
- ❑ Gəminin idarə oluna bilməməsi;
- ❑ Yanğın;
- ❑ Gəminin tərk edilməsi;
- ❑ Fırtına xəbərdarlığı;
- ❑ Yükün yerdəyişməsi;
- ❑ Yükün itirilməsi və zədələnməsi;
- ❑ Gəminin zədələnməsi ;
- ❑ Maşın şöbəsində qəza ;
- ❑ Su basması, batma ;
- ❑ Neft və zərərli maddələrin dağılıb yayılması (çirklənmə);
- ❑ Texniki qurğu, cihaz və avadanlığın təlimatlara uyğun istismar edilməməsi.

Qeyd olunan fövqəladə halların sayı mütləq deyil, onlar arta da bilər.

Əvvəldə qeyd edildiyi kimi, baş vermiş fövqəladə hadisələrə, o cümlədən ekoloji fəsadlı qəza hallarına qarşı tədbirləri idarə etmək, gəmi heyəti və sahil personalının işini uzlaşdırmaq, aidiyyəti qurumları məlumatlandırmaq və işə cəlb etmək məqsədilə Cəmiyyətdə "Qəza Hallarına Qarşı Böhran Qrupu" yaradılmış, gəmilərdə isə İSM (MKUB) sertifikatlı gəmi rəhbər heyəti üzvləri seçilmişdir.

Gəmiçiliyin "Böhran Qrupu" fövqəladə və qəza hallarında düzgün qərarlar qəbul etmək üçün digər aidiyyəti sənədlərlə yanaşı, ehtiyac yaranarsa "Cəmiyyət üçün Fövqəladə və Qəza Hallarında Ekoloji Təhlükəsizlik Proqramı"na da istinad edə bilər.

Ümumilikdə hər hansı bir, o cümlədən ekoloji yönümlü, qəza və ya fövqəladə vəziyyət yaranarsa, Cəmiyyətin gəmiləri və sahil bölmələrində tədbirlər aşağıdakı zəncir ardıcıllığı ilə icra olunur:

Qəza vəziyyəti barədə məlumat gəmi kapitanı və ya sahil obyekti rəhbəri tərəfindən təcili surətdə Cəmiyyətin növbətçi dispetçerinə ötürülür, oradan isə dərhal "Böhran Qrupu"nun rəhbərinə və üzvlərinə çatdırılır. Məlumatlandırılmış "Böhran Qrupu"nun üzvləri Cəmiyyətin idarəetmə aparatında ayrılmış xüsusi otaqda (işin səciyyəsi və gedişatından asılı olaraq toplaşma yeri dəyişdirilə bilər) toplaşmalıdırlar. "Böhran Qrupu" rəhbərinin (Cəmiyyət sədrinin) gəlişinədək əməliyyatın gedişatına rəhbərlik vəzifəsini "Böhran Qrupu" rəhbərini əvəzləyici şəxs (sədrin birinci müavini) icra edir.

**"Böhran Qrupu" təcili surətdə:**

- ❑ Qəza baş vermiş obyekt barədə bütün zəruri məlumatların (qabaqcadan hazırlanmış qovluqların) gətirilməsi barədə sərəncam verir ;
- ❑ Cəmiyyətin bütün resurslarını tam hazırlıq vəziyyətinə gətirir;
- ❑ Bütün mümkün rabitə vasitələrilə qəza baş vermiş obyekt – gəmi ilə əlaqə yaradıb rabitənin davamlığını təmin edir, qəzanın ilkin səbəblərini və nəticələrini, gəminin vəziyyətini (qəza rayonu və hidrometeo şərait nəzərə alınmaqla) müəyyənləşdirir, görülmüş tədbirlər, tələb olunan sahil yardımı (kömək) barədə məlumatlar alır, təcili surətdə zəruri sahil yardımının (köməyin) təmin olunmasını təşkil edir, çevik dəstələrin həmin sahəyə çatması vaxtını hesablayır, həmin dəstələr və texniki vasitələrlə etibarlı rabitə yaradıb saxlayır, lazım gələrsə qəza yerində müvafiq əməliyyatlara birbaşa rəhbərliyi icra edən şəxsi təyin edir. Bütün hallarda gəmilərdə baş vermiş qəza zamanı yerində qərarların qəbul edilməsi prioriteti gəmi kapitanına məxsusdur (Cəmiyyət bu məsələdə həmişə kapitanı dəstəkləyir);
- ❑ Səlahiyyətli dövlət qurumlarını, fəaliyyət dairəsi üzrə partnyorları (Təsnifat Cəmiyyətlərinin Beynəlxalq Assosiasiyasının üzvlərini, icarədarları, sığorta şirkətlərini və s.), habelə milli və beynəlxalq təhlükəsizlik xidmətlərini qəza hadisəsinin səciyyəsi, yerin koordinatları, onun lokallaşdırılması və fəsadlarının aradan qaldırılması yönümlü tədbirlər barədə mütəmadi məlumatlandırır, lazım gələrsə yardım göstərmələrinə dair müraciət edir.

"Böhran Qrupu"nun göstəriş və tapşırıqlarının icrası Cəmiyyətin bütün əməkdaşları üçün mütləqdir.

Gəmiçilikdə fövqəladə hallara, o cümlədən neft dağılmalarına qarşı növbəti qabaqlayıcı tədbir aidiyyəti təlimlərin keçirilməsidir. Belə ki, müvafiq beynəlxalq idarəetmə standartlarının və konvensiyaların tələbləri, habelə Cəmiyyətin "Təhlükəsizliyin Keyfiyyətli İdarəedilməsi Sistemi"nin prosedurları əsasında gəmilərimizdə "Dənizdə adam", "Su basma", "Yanğın", "Toqquşma" və digər həyəcan təlimləri ilə yanaşı, həm də rübdə bir dəfə olmaq şərtilə hami kapitanın mütləq iştirakı ilə "Neftlə mübarizə" məşqləri də keçirilir. Müvafiq həyəcan təlimləri vaxtaşırı olaraq Cəmiyyətin "Böhran Qrupu" tərəfindən də yerinə yetirilir.

Yekun olaraq bildirmək istərdik ki, Gəmiçiliyin gəmilərindəki neft dağılmalarına qarşı mübarizə tədbirləri qəzanın böyüklük və çətinlik dərəcələri, habelə dağılmanın həcmindən asılı olaraq 3 səviyyədə həyata keçirilə bilər:

- *Dağılma az miqdarda və bort daxilindədirsə gəmi heyəti səviyyəsində;*
- *Dənizə neft dağılması sahilə yaxın akvatoriyada baş veribsə və 10 - 100 litr civarındadırsa, daxili insan və texniki resursları cəlb etməklə "Böhran Qrupu" səviyyəsində;*
- *Dənizə neft dağılması sahildən uzaq akvatoriyada baş verərsə və böyük miqdarda olarsa, Cəmiyyətin "Böhran Qrupu"nun müraciəti əsasında Fövqəladə Hallar Nazirliyi səviyyəsində.*

Xüsusi qeyd etmək istərdik ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin təsis olunduğu 4 illik zaman kəsiyi ərzində görülmüş qabaqlayıcı tədbirlər nəticəsində şükürlər olsun ki, hələ nə orta, nə də yüksək səviyyəli neft dağılmaları halları qeydə alınmamışdır və ümidvarıq ki, gələcəkdə də baş verməyəcək.

**Ələkbər Əzizli,**
*"AXDG" QSC, Keyfiyyət, sağlamlıq, əməyin təhlükəsizliyi və ətraf mühitin mühafizəsi (KSƏTƏMM) departamentinin rəisi*

**Sabir Kərimzadə,**
*KSƏTƏMM departamentinin ətraf mühitin mühafizəsi üzrə aparıcı mühəndisi*

# BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATINA ÜZV DÖVLƏTLƏR DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASININ TƏCRÜBƏSİNDƏN YARARLANMAQ İSTƏYİRLƏR






***Beynəlxalq Dəniz Təşkilatına üzv dövlətlər Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasının təcrübəsindən yararlanmaq üçün rəsmi müraciət ediblər.***

Dövlət Dəniz Administrasiyasından bildirilib ki, administrasiyanın rəisi Qüdrət Qurbanovun rəhbərlik etdiyi nümayəndə heyəti noyabrın 27-si dekabrın 6-sı tarixlərində Beynəlxalq Dəniz Təşkilatının 30-cu Assambleyasının sessiyasında iştirak edib. Beynəlxalq Dəniz Təşkilatının Londonda yerləşən mənzil-qərargahında keçirilən iclasda assambleyanın prezidenti və vitse-prezidentləri seçilib, etimadnamə komitəsi və digər komitələr yaradılıb, Beynəlxalq Dəniz Təşkilatının Şurasının və digər komitələrinin 2017-ci il ərzində keçirilən sessiyalarının yekunları barədə məruzələr dinlənilib.

Dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyətinin qiymətləndirilməsi məqsədilə Beynəlxalq Dəniz Təşkilatının Audit Ekspert Qrupunun 2017-ci ilin 28 may–6 iyun tarixlərində Azərbaycan Dövlət Dəniz Administrasiyasında keçirdiyi audit yoxlamasının uğurlu nəticələri ilə bağlı Azərbaycan nümayəndə heyətinin rəhbəri Qüdrət Qurbanov çıxış edib. Dövlət Dəniz Administrasiyasının rəisi bildirib ki, audit yoxlamanın nəticələrinə əsasən Azərbaycan Respublikası 172 dünya dəniz dövləti sırasında ən qabaqcıllar olan Avropa dövlətlərini geridə qoyaraq, statistika üzrə ön sırada yer tutub.

Azərbaycan nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, Audit Ekspert Qrupunun keçirdiyi audit yoxlamasının müsbət nəticələri Azərbaycanda dəniz nəqliyyatı sahəsində həyata keçirilən tədbirlərin, qəbul edilən normativ hüquqi aktların, gəmilərin standartlarına nəzarət və müfəttişlər tərəfindən yoxlanılmasının, Dövlət Dəniz Administrasiyasının tabeliyində olan liman kapitanlarının fəaliyyətinin, liman akvatoriyalarında və ümumiyyətlə Azərbaycan Respublikasının bütün ərazi sularında gəmilərin hərəkətinin idarə edilməsi sisteminin Beynəlxalq Dəniz Təşkilatının bütün tələblərinə uyğun olaraq yüksək səviyyədə təşkil olunması barədə fikir yürütməyə əsas verir.

Audit yoxlamasından uğurla çıxan Azərbaycan Dövlət Dəniz Administrasiyasının qazandığı müsbət nəticələr Beynəlxalq Dəniz Təşkilatına üzv dövlətlərin rəğbətinə səbəb olub. Beynəlxalq Dəniz Təşkilatına üzv dövlətlər Belarus və Ukraynanın təmsilçiləri Azərbaycanın təcrübəsindən yararlanmaq istədiklərini və tezliklə geniş nümayəndə heyəti ilə ölkəmizə səfər edəcəklərini bildiriblər.

Qeyd edək ki, Türkmənistan Respublikasının Çay və Dəniz Nəqliyyatı Dövlət Xidmətinin Dəniz Üzgüçülüyünə nəzarət üzrə Dövlət Administrasiyasının rəhbərliyi də noyabr ayında bu məqsədlə Azərbaycana səfərə gəlib.

İclasda 2017-ci ildə keçirilən digər audit yoxlamaların nəticələrinə dair məlumatlar verilib, Beynəlxalq Dəniz Təşkilatına üzv olan 172 dövlətin hesabatı, Beynəlxalq Dəniz Təşkilatının təlim–tədris mərkəzlərinin hesabatları, 2016-cı və 2017-ci illərdə qeyd edilən "Beynəlxalq Dənizçi Günü" ilə əlaqədar hesabatlar dinlənilib.

Uzun illər ərzində Beynəlxalq Dəniz Təşkilatına verdiyi töhfəyə görə, seçilən karyera sahibi 4 il ərzində Beynəlxalq Dəniz Təşkilatının baş katibi olmuş Koji Sekimizuya 2016-cı il üçün nüfuzlu Beynəlxalq Dəniz Mükafatı təqdim edilib. Mükafatı Beynəlxalq Dəniz Təşkilatının baş katibi Kitak Lim təqdim edib.

Assambleyanın iclasının gedişində "Beynəlxalq Dəniz Təşkilatı haqqında" Konvensiyanın 16-cı və 17-ci maddələrinə uyğun olaraq növbəti iki illik müddətə Beynəlxalq Dəniz Təşkilatının Şurasına seçkilər keçirilib. Nəticələrə əsasən A kateqoriyası üzrə 10, B kateqoriyası üzrə 10, C kateqoriyası üzrə 20 dövlət seçilib.

# BEYNƏLXALQ HİDROQRAFİYA TƏŞKİLATININ NÜMAYƏNDƏLƏRİ UZAQ MƏSAFƏDƏN TANINMA VƏ İZLƏMƏ MİLLİ MƏRKƏZİNİN İMKANLARINI YÜKSƏK QİYMƏTLƏNDİRİBLƏR





***Beynəlxalq Hidroqrafiya Təşkilatının Texniki Dəstək Qrupunun nümayəndələri Dövlət Dəniz Administrasiyasının rəsmiləri ilə görüşüblər.***

Azərbaycan Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Naviqasiya və Kartoqrafiya İdarəsinin nümayəndələrinin də iştirak etdiyi görüşdə, ilk olaraq, Dövlət Dəniz Administrasiyasının Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi ilə tanışlıq olub.

Qonaqlara məlumat verilib ki, Azərbaycan Respublikası Prezidentinin 14 mart 2014-cü il tarixli 338 nömrəli Sərəncamına əsasən ölkəmizin ərazisində dəniz üzgüçülüyünün təhlükəsizliyinin daha səmərəli təşkilini təmin etmək məqsədilə Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi yaradılıb. Nazirlər Kabinetinin 23 may 2014-cü il tarixli 164 nömrəli qərarı ilə təsdiq edilən nizamnaməyə əsasən adıçəkilən mərkəzin funksiyalarına Azərbaycan Respublikasının ərazi sularında və liman akvatoriyalarında dəniz üzgüçülüyünün təhlükəsizlik sisteminin təşkil olunması, gəmilərin hərəkətinin idarə edilməsi, gəmilərdə yoxlamaların həyata keçirilməsi, bələdçi xidmətinin göstərilməsi, gəmilərin uzaq məsafədən izlənilməsi və dəniz üzgüçülüyünün təhlükəsizliyinə aid digər funksiyalar daxildir. Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin yaradılması Azərbaycanın qoşulduğu Beynəlxalq Konvensiyaların tələblərinin yerinə yetirilməsinə və gəmilərin nəzarət yoxlamasının beynəlxalq standartlara uyğun olaraq daha səmərəli və effektiv həyata keçirilməsinə xidmət göstərməkdədir.

Dövlət Dəniz Administrasiyasının rəsmiləri bildiriblər ki, "Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya"nın tələblərinin yerinə yetirilməsi məqsədilə Xəzəryanı ölkələrdə ilk dəfə olaraq Azərbaycanda yaradılmış, ən son naviqasiya və müşahidə avadanlıqları ilə təchiz edilmiş Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinin əsas funksiyaları – Azərbaycanın ərazi sularında üzən gəmilərin mövqeyinin peyk və radarlar vasitəsilə izlənilməsi, onların hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, naviqasiya xəbərdarlıqlarına və hava haqqında proqnozlara dair müvafiq məlumatların gəmilərə çatdırılması, "Azərbaycan Respublikasının ərazi sularında üzmə Qaydaları"na riayət olunmasına nəzarətin həyata keçirilməsi, gəmilərdən daxil olan həyəcan siqnallarının (SOS) və digər məlumatların aidiyyəti dövlət qurumlarına çatdırılmasının təmin edilməsi və əlaqələndirmənin təşkili, habelə beynəlxalq təşkilatlar daxil olmaqla, digər ölkələrin eyni adlı milli mərkəzləri və gəmiçilik şirkətləri ilə mütəmadi olaraq operativ əlaqənin yaradılması və informasiya mübadiləsinin həyata keçirilməsindən ibarətdir.

Qonaqlara, həmçinin Müdafiə Nazirliyinin Naviqasiya və Kartoqrafiya İdarəsinin Dövlət Dəniz Administrasiyasının Milli Mərkəzi ilə birgə əməkdaşlığı barədə məlumat verilərək əldə edilən uğurlu nəticələr diqqətə çatdırılıb. Dövlət qurumlarının birgə əməkdaşlığını yüksək qiymətləndirən qonaqlara Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinin öz texniki təchizatı baxımından bir çox qabaqcıl Avropa dövlətlərinin oxşar qurumlarından daha üstün olması, Milli Mərkəzdə işə cəlb olunmuş mütəxəssislərin xarici ölkələrin müvafiq mərkəzlərində xüsusi təlimlər keçməsi barədə də məlumat verilib.

Daha sonra Azərbaycan Respublikasında Hidroqrafiya Xidmətinin imkanlarının dəyərləndirilməsi, ölkəmizin Beynəlxalq Hidroqrafiya Təşkilatına üzv olması prosesinin sürətləndirilməsi məqsədilə keçirilən tədbirlər və bu istiqamətdə görülən işlər barədə müzakirələr aparılıb. Azərbaycanda yaradılan, ən son naviqasiya və müşahidə avadanlıqları ilə təchiz edilən Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzinin imkanlarını yüksək qiymətləndirən qonaqlar Milli Mərkəzlə tanışlıq zamanı onlarda yaranan təəssüratları və əldə etdikləri məlumatları hesabatlarında xüsusi vurğulayacaqlarını deyiblər.

Görüşdə maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# ASTARA (İRAN) – ASTARA (AZƏRBAYCAN) DƏMİR YOLU XƏTTİ DEKABRIN 25-DƏ İSTİSMARA VERİLƏCƏK

***Azərbaycan və İranın dəmir yolları sistemlərini birləşdirəcək Astara (İran) – Astara (Azərbaycan) dəmir yolu xətti dekabrın 25-də istismara veriləcək.***

Bu barədə məlumatı İran Dövlət Dəmir Yolları İdarəsinin beynəlxalq əlaqələr idarəsinin direktoru Abbas Nəzəri verib. O bildirib ki, tərəflər arasında gömrük qeydiyyatı, viza rejimi və İran Astarasında tikilən yük terminalından istifadə qaydaları haqqında da razılıq əldə olunub.

Xatırladaq ki, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin əsasını təşkil edən Qəzvin-Rəşt dəmir yolunun davamı olan Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu xətti İran ilə Rusiyanın dəmir yolları sistemlərini Azərbaycan vasitəsilə birləşdirəcək.

***Rabil Kətanov***



# "NEFTÇİLƏRƏ XİDMƏT ETMƏKDƏN QÜRUR DUYURAM"

***Müsahibimiz "General Əsədov" gəmisinin kapitanı Kamil Muxtarovdur.***

**- Kamil müəllim, söhbətimizə sizi tanımaqla başlayaq. Bilirəm ki, Bakıda doğulmusunuz...**

- Bəli, 1956-cı il iyunun 1-də Bakıda anadan olmuşam. Babam dənizçi, atam neftçi olub.

**- Deməli, dənizçi olmağınız təsadüfi deyil?**

- Düzü, bu peşəni məni dənizçi görmək istəyən babamın təkidi ilə seçmişəm. 1973-cü ildə sənədlərimi Qafur Məmmədov adına Bakı Dəniz Yolları Məktəbinə verdim. Burada "Gəmi sürücülüyü" ixtisasına yiyələndim. 1977-ci ildə təyinatla Xəzər Dəniz Neft Donanmasına gəldim.

**- Elə o vaxtdan Xəzər Dəniz Neft Donanmasında işləyirsiniz?**

- Bəli, 40 ildən çox dənizçilik təcrübəm var. Sular qoynunda fəaliyyətimə kapitanın 3-cü köməkçisi kimi başlamışam. 30 ildir kapitanam.

**- Kamil müəllim, dənizçi olmaq asan deyil. Kapitanlıq isə yəqin ikiqat çətindir.**

- Təbii ki, asan deyil. Amma bu işin çətinliklərini izah etmək ondan da çətindir. Dənizdə olanları, fırtınanın yaratdığı həyəcanı, fırtınadan çıxdığımız zaman yaşadığımız sevinci heç cür təsvir edə bilmərəm. Bunun üçün dənizdə olmaq, dənizçi işləmək lazımdır. Ümumilikdə, işimiz çox məsuliyyətlidir. Hər anı diqqət və sevgi tələb edir. İradəli olmalı, dənizi və dənizin sənə bəxş etdiklərini sevməlisən, onun nazıyla oynamalısan. Əks halda, dənizə uduzacaqsan.



**- Dənizçi olduğunuza, babanızın sözünə qulaq asdığınıza görə heç peşmançılıq hissi keçirmisinizmi?**



- Bu nöqtəyə heç gəlmədim. Əksinə, hər zaman qarşıma qoyduğum məqsədləri düşündüm. Adam var, dörd il oxuyur və işə gəldiyi ilk gün də geri çəkilir. Qorxur... Bu işin bir sirri var. Hər gün bugün bitsin, evə dönüm deyərsinizsə, o gün doğrudan da keçməyəcək. Buna görə də dənizçi olmaq istəyən hər kəs bu işi həyat tərzinə çevirməlidir.

**- Gəmi kapitanı kimi heyətinizlə münasibəti necə tənzimləyirsiniz?**

- Heyətimiz 21 nəfərdən ibarətdir. Onların hər biri mənə ayrı-ayrılıqda doğmadır. Ümumiyyətlə, heyətimiz çox yaxşıdır. Bir-birimizə dəstək olmağı bacarırıq, ailə kimiyik.

**- Kamil müəllim, idarə etdiyiniz "General Əsədov" gəmisi ilə neftçilərə xidmət edirsiniz. Bir qədər də işinizdən, sərnişinlərlə münasibətinizdən danışın.**

- Hər gün 500 neftçini "Neft Daşları"na aparır və geri gətirirəm. Qarşıma qoyulan əsas vəzifə bu işi təhlükəsiz yerinə yetirməkdir. Bunun üçün əlimdən gələni edirəm. Onu da deyim ki, neftçilərə xidmət etməkdən qürur duyuram.

**- Yeri gəlmişkən, bu günlərdə Prezident İlham Əliyev iki milyardıncı ton neftin hasili münasibətilə sizi "Tərəqqi" medalı ilə təltif etdi. Nə deyə bilərsiniz?**

- Əməyimiz hər zaman qiymətləndirilir. Dənizçilərə bu cür diqqətin olması sevindiricidir. Buna görə, dövlətimizin başçısı cənab İlham Əliyevə və Gəmiçiliyin rəhbəri Rauf Vəliyevə dərin minnətdarlığımı bildirirəm.

**- Son olaraq əlavəniz varsa, buyurun.**

- Hər kəsə cansağlığı arzulayıram. Sizə də təşəkkür edirəm ki, şərəfli dənizçi peşəsinə maraq yaradırsınız. "Dəniz" qəzeti və "Seanews.az" saytı biz dənizçilərin sevimli informasiya mənbəyidir. İşlərinizdə uğurlar!

***Rövşən Abdurəhmanov***

# KRAN GƏMİLƏRİNDƏ İŞLƏYƏNLƏR ÜÇÜN TƏLİM KEÇİRİLİR

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC Xəzər Dəniz Neft Donanmasının kran gəmilərində müvafiq işləri görən bir qrup əməkdaş üçün "ilməçi-siqnalçı", "takalej avadanlıqları ilə iş" adlı təlim keçirilir.***

Təlimlər zamanı kran gəmilərində yükqaldırmaya nəzarət, yüklərin bağlanması, qoşulması, takelaj avadanlıqları ilə iş əməliyyatları nəzəri və praktiki şəkildə izah olunur.

Ümumilikdə 40 nəfərə yaxın əməkdaşın iştirak edəcəyi təlimlər qrup şəklində təşkil edilir. Hər qrup üçün təlim müddəti 3-5 gündür.

Onu da deyək ki, təlim "Safety Qualification Advisory Group" şirkətinin bu sahədə beynəlxalq sertifikatlara malik təlimçisi tərəfindən aparılır.

Xatırladaq ki, Gəmiçiliyin Təhlükəsizliyin və Keyfiyyətin İdarəetmə Sisteminə əsasən kran gəmilərinin yük əməliyyatlarını yerinə yetirən müvafiq əməkdaşları "Yükqaldırma əməliyyatları və qaldırıcı qurğularla iş qaydaları" (LOLER 98), "İş avadanlıqlarının təchizatı və istifadəsi qaydaları" (PUWER 98), "İş yerində sağlamlıq və təhlükəsizliklə bağlı 1974-cü il Akt"ı (HASAWA 1974) kimi beynəlxalq tələblərə uyğun təlimləndirilməlidirlər.














# İLK DƏFƏ GƏMİÇİLİYİN "RO-RO" TİPLİ GƏMİSİ İLƏ KURIK LİMANINDAN YÜK VƏ MİNİK AVTOMOBİLLƏRİ GÖNDƏRİLİB

***Qazaxıstanın Kurık limanından "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus "Ro-RO" tipli "Bəstəkar Qara Qarayev" gəmisi ilə ilk dəfə minik və yük avtomobilləri yola salınıb.***

"RO-RO" tipli gəmi göyərtəsinə 27 TIR, 1 minik avtomobili və 30 sərnişin qəbul edib. Gəmi Bakı Beynəlxalq Dəniz Ticarət Limanına dekabrın 10-da çatıb.

Məlumat üçün bildirək ki, uzunluğu 125.25, eni 16.22 metr olan Gəmiçiliyin Dəniz Nəqliyyat Donanmasına məxsus " Bəstəkar Qara Qarayev" gəmisinin yükgötürmə qabiliyyəti 3463 tondur.

Qeyd edək ki, bundan əvvəl Kurık limanından yalnız vaqonların yüklənməsi mümkün idi. "RO-RO" tipli gəmilər üçün yeni yanalma körpüsünün istifadəyə verilməsi isə TIR və minik avtomobillərinin də daşınmasına şərait yaradıb.

Liman rəsmilərinin sözlərinə görə, yeni körpü ildə 2 milyona yaxın əlavə yük göndərməyə imkan verir.



# “AZƏRBAYCAN RESPUBLİKASINDA DƏNİZ NƏQLİYYATI SAHƏSİNDƏ MƏSULİYYƏTİN ARTIRILMASINDA DÖVLƏT DƏNİZ ADMİNİSTRASİYASINA DƏSTƏK” TVİNNİNQ LAYİHƏSİNİN YEKUN İCLASI KEÇİRİLİB





***Dekabrın 8-də Dövlət Dəniz Administrasiyasında “Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına Dəstək” Tvinninq layihəsinin yekun iclası keçirilib.***

Layihənin əsas məqsədi Azərbaycanda dəniz üzgüçülüyünün təhlükəsizliyi və dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınması ilə əlaqədar beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş məsuliyyət prosedurlarının Avropa İttifaqı qanunvericiliyi ilə əlaqəli şəkildə həyata keçirilməsində və tətbiqi məsələlərində Dövlət Dəniz Administrasiyasının potensialını gücləndirməkdən ibarət olub.

Yekun iclasda Dövlət Dəniz Administrasiyasının rəisinin müavini Şahlar Məmmədov, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas, üzv dövlətin layihə rəhbəri Benito Nunez Quintanilla, Rezident Tvinninq müşaviri Fernando Juan Collado Simon, eləcə də Nazirlər Kabineti, İqtisadiyyat, Ədliyyə, Ekologiya və Təbii Sərvətlər nazirlikləri və “Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin nümayəndələri və digər rəsmilər iştirak ediblər.

Tədbirdə çıxış edən Dövlət Dəniz Administrasiyasının rəis müavini Şahlar Məmmədov bildirib ki, respublikamızda dəniz nəqliyyatı sahəsinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən xüsusi əhəmiyyətli zəruri tədbirlərdən biri və ən önəmlisi mövcud maddi-texniki bazadan daha səmərəli istifadə edilməsi məqsədilə dəniz nəqliyyatı sahəsi üzrə milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində görülən işlərdir.

Məhz Avropa Qonşuluq və Tərəfdaşlıq Alətinin Azərbaycan üzrə Fəaliyyət Proqramı çərçivəsində Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyasında həyata keçirilən “Azərbaycan Respublikasında dəniz üzgüçülüyünün təhlükəsizliyinin və dəniz mühitinin mühafizəsinin təkmilləşdirilməsi haqqında” Tvinninq layihəsindən uğurlu nəticələr əldə edilib. Bundan əlavə, bu Tvinninq layihəsi də respublikamızda dəniz nəqliyyatı sahəsi üzrə milli qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində atılan mühüm addımlardan biri kimi dəyərləndirilə bilər.

Tədbirdə vurğulanıb ki, “Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək” adlı tvinninq layihəsi çərçivəsində qarşıya qoyulan məqsədlərə tam nail olunub.

“Dəniz tələbləri ilə bağlı məsuliyyətin məhdudlaşdırılması haqqında” 1976-cı il tarixli Beynəlxalq Konvensiyaya dəyişikliklər edilməsi barədə” 1996-cı il tarixli Protokol Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 466-VQ nömrəli Qanunu ilə təsdiq edilib və həmin Protokola uyğunlaşdırılması məqsədilə hazırlanan “Azərbaycan Respublikasının Ticarət Gəmiçiliyi Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilib.

Bundan başqa, dəniz nəqliyyatı sahəsi üzrə inzibati məsuliyyəti müəyyən edən normativ hüquqi aktlar, İnzibati Xətalar və Ticarət Gəmiçiliyi Məcəllələrinin müvafiq hissələri bir daha nəzərdən keçirilib, müvafiq müddəalar ətraflı təhlil edilərək, qiymətləndirilmə aparılıb və qanun layihələri yenidən işlənərək hazırlanıb. Nəticədə “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Qanun 2017-ci il 16 may tarixində Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas bildirib ki, bütün nəqliyyat növlərinin təhlükəsizliyi və mühafizəsi sahəsində qanunvericilik və normativ bazanın Avropa və beynəlxalq standartlara uyğunlaşdırılması prosesində Avropa İttifaqının Azərbaycana dəstək göstərməsi istiqamətində reallaşan əməkdaşlığı uğurla davam edir. Səfir Beynəlxalq Dəniz Təşkilatının üzv Dövlətlərinin Audit Sxeminə (İMSAS) əsasən keçirilən audit yoxlamasına hazırlıq prosesində Tvinninq layihəsinin əhəmiyyətli rolu olduğunu bildirərək, yoxlamanın nəticələrinin yüksək qiymətləndirildiyini qeyd edib. O, həmçinin 2014-cü ildə başa çatan “Azərbaycan Respublikasında dəniz üzgüçülüyünün təhlükəsizliyinin və dəniz mühitinin mühafizəsinin təkmilləşdirilməsi haqqında” Tvinninq layihəsindən danışıb.

Bundan əlavə, səfir diqqətə çatdırıb ki, hazırda yekun iclası keçirilən Tvinninq layihəsinin reallaşması da Dövlət Dəniz Administrasiyasının təşəbbüsü ilə baş tutub.

Toplantıda çıxış edən Dövlət Dəniz Administrasiyasının rəsmiləri bildiriblər ki, dəniz nəqliyyatı sahəsi üzrə beynəlxalq konvensiyaların tələblərindən irəli gələn öhdəliklərin icra vəziyyətinin qiymətləndirilməsi məqsədilə Beynəlxalq Dəniz Təşkilatının audit ekspert qrupunun Azərbaycan Respublikasında keçirdiyi audit yoxlama zamanı Prezident İlham Əliyevin rəhbərliyi altında iqtisadiyyatımızın strateji cəhətdən mühüm sahələrindən biri olan dəniz nəqliyyatı sahəsində formalaşdırılmış siyasətə uyğun olaraq həyata keçirilən davamlı islahatlar və bu məqsədlə təsdiq olunmuş mövcud normativ hüquqi aktlar, habelə dəniz üzgüçülüyünün təhlükəsizliyi, dənizdə insan həyatının və dəniz mühitinin mühafizəsi sahəsində məqsədyönlü və ciddi tədbirlərin həyata keçirilməsi Audit Ekspert Qrupu tərəfindən xüsusi rəğbətlə qarşılanıb.

Çıxışlarda audit yoxlamasına hazırlıq işlərinin aparılması, həyata keçirilmiş iki Tvinninq layihəsinin nəticəsi olaraq qanunvericiliyimizin Azərbaycan Respublikasının dəniz nəqliyyatı sahəsində qoşulduğu beynəlxalq konvensiyalara, habelə müvafiq Avropa İttifaqı direktivlərinə uyğun təkmilləşdirilməsi, treninq və seminarların təşkilinə dair təcrübə mübadiləsinin aparılması, aidiyyəti məsələlərin müzakirə edilməsi və lazımi tədbirlərin görülməsi istiqamətində ispaniyalı mütəxəssislərlə həyata keçirilən əməkdaşlıq xüsusi vurğulanıb.

İclas zamanı administrasiyanın tabeliyində Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzinin Uzaq Məsafədən Tanınma və İzləmə Milli Mərkəzi nümayiş etdirilib. Ən son və müasir standartlara cavab verən izləmə avadanlıqları vasitəsilə təmin olunan belə bir mərkəzin “Dənizdə insan həyatının mühafizəsinə dair Beynəlxalq Konvensiya”nın tələblərinə uyğun olaraq Xəzəryanı ölkələrdə ilk dəfə Azərbaycanda yaradıldığı qeyd edilərək, görüş iştirakçılarına uzaq məsafədə üzən gəmilərin izlənilməsi prosesi ilə yaxından tanış olmaq imkanı yaradılıb.

İclasın sonunda tərəflər Avropa İttifaqının dəniz nəqliyyatı sahəsindəki təcrübəsinin ölkəmiz üçün əhəmiyyətindən bəhs edib və Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında digər sahələrdə də əməkdaşlığın genişləndirilməsinin ölkəmizdə dəniz nəqliyyatı sahəsində mövcud potensialın inkişafına şərait yaradacağını vurğulayıblar.

Qeyd edək ki, Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası qabaqcıl ölkələrin dəniz nəqliyyatı sahəsində təcrübəsinin öyrənilməsinə daim üstünlük verir. Avropa Qonşuluq və Tərəfdaşlıq Proqramları çərçivəsində “Azərbaycan Respublikasında dəniz üzgüçülüyünün təhlükəsizliyinin və dəniz mühitinin mühafizəsinin təkmilləşdirilməsi haqqında” Tvinninq layihəsindən sonra “Azərbaycan Respublikasında dəniz nəqliyyatı sahəsində məsuliyyətin artırılmasında Dövlət Dəniz Administrasiyasına dəstək” Tvinninq layihəsi Avropa İttifaqı tərəfindən maliyyələşdirilən artıq ikinci uğurlu layihələrdəndir.




## “CƏNUB QAZ DƏHLİZİ” LAYİHƏSİ ÜZRƏ MALİYYƏ ÖHDƏLİKLƏRİNİN 72 FAİZİ İCRA EDİLİB

***Azərbaycan “Cənub Qaz Dəhlizi” layihəsi üzrə maliyyə öhdəliklərinin 72 faizini icra edib.***

Bu barədə AZƏRTAC-ın sorğusuna cavab olaraq “Cənub Qaz Dəhlizi” Qapalı Səhmdar Cəmiyyətindən (CQD) bildirilib.

Qeyd edilib ki, “Cənub Qaz Dəhlizi” layihələrində “Cənub Qaz Dəhlizi” QSC-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 2014-2020-ci illər üzrə tələb olunan 11,7 milyard ABŞ dolları həcmində vəsaitdən cari ilin dekabrın 12-dək 8,4 milyard dollarıq hissəsi, yəni 72 faizi investisiya edilib.

Xatırladaq ki, “Cənub Qaz Dəhlizi” QSC Azərbaycan Prezidentinin “Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və “Cənub Qaz Dəhlizi”nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında” 2014-cü il tarixli 25 fevral Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.

Qeyd edək ki, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan “Cənub Qaz Dəhlizi”nin seqmentlərini “Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi (CQBKG), TANAP və TAP layihələri təşkil edir. Bu boru xətti Xəzər dənizinin Azərbaycan sektorundakı “Şahdəniz-2” yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan “Cənub Qaz Dəhlizi” vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır.

## “DAHA YAXŞI GƏLƏCƏK ÜÇÜN, DAHA YAXŞI DƏNİZ DAŞIMALARI”

***Gələn il Beynəlxalq Dəniz Təşkilatı (IMO) 70 illik yubileyini qeyd edəcək. Elə 2018-ci il üçün seçilən şüar da bununla bağlı olacaq.***



Bu barədə Londonda keçirilən Beynəlxalq Dəniz Təşkilatının 30-cu Assambleyasında çıxış edən qurumun baş katibi Ki Tak Lim məlumat verib.

Onun sözlərinə görə, 2018-ci ildə dənizçilər “Daha yaxşı gələcək üçün, daha yaxşı dəniz daşımaları” şüarı altında fəaliyyət göstərəcəklər.

Baş katib əlavə edib ki, IMO 1948-ci ildən qlobal tədarük zəncirində vacib rol oynayır. Təşkilat missiyasını bundan sonra da davam etdirməyə çalışacaq.

## “XƏZƏRDƏNİZLAYİHƏ ETİ”-DƏ DAHA İRİ GƏMİLƏRİN LAYİHƏLƏNDİRİLMƏSİ BARƏDƏ DÜŞÜNÜRLƏR



***Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutu (“Xəzərdənizlayihə ETİ”) 1930-cu ildən fəaliyyət göstərir.***

İnstitut bərə əlaqəsinin inkişafına böyük töhfələr verib. Belə ki, əməkdaşlarının layihələri əsasında Bakı, Türkmənbaşı, Bekdaş limanlarında bərə kompleksləri, Saxalin adasını materiklə birləşdirən Vanino – Xolmsk, İliçevsk – Varna (Ukrayna – Bolqarıstan), Klaypeda – Mukran (Litva – Almaniya) bərə keçidləri yaradılıb.

Bakının Qaradağ rayonunda yerləşən Dərin Özüllər Zavodunun hidrotexniki qurğularının inşası, gəmi təmiri zavodlarının və gəmi üzgüçülüyü kanallarının rekonstruksiyası da bu institutun adı ilə bağlıdır. Bundan başqa, institut Suriya, Liviya, İran, Bolqarıstan və Əfqanıstanda da bir çox tədqiqat və layihə işi həyata keçirib.

Bakının simvoluna çevrilmiş Bulvar ərazisində yerləşən “Yaxt Klub” və gəzinti katerləri də Xəzər Dəniz Layihə Elmi-Tədqiqat İnstitutu əməkdaşlarının layihələri əsasında tikilib.

Bir müddət fəaliyyət istiqamətini dəyişən “Xəzərdənizlayihə ETİ” gəmi təmirində layihələndirmə işləri aparıb. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin yaradılmasından sonra demək olar ki, qurum yenidən təşkil edilib.

İnstitutun direktoru Oyrad Abdullayev deyir ki, üzərimizə böyük vəzifə və tapşırıqlar qoyulub:

- Hazırda institutda Xəzər Dəniz Neft Donanması üçün yeni gəmilər layihələndirilir. Belə ki, institut tərəfindən 300kVt gücə malik olan təchizat, dənizin dərinliyi 60 m qədər olan sahələrdə işləmək üçün dalğıc və sahilyanı dəniz neft obyektlərinə işçiləri daşımaq üçün nəzərdə tutulan 70 nəfərlik sərnişin katerlərinin layihələri uğurla icra olunur.

**– Tikinti işləri nə vaxt başlayacaq?**

-Təchizat katerinin Təsnifat Cəmiyyəti tərəfindən təsdiqini almışıq. Artıq işçi layihəsinə başlamışıq. Dalğıc kateri üzrə sənədlərin bəzisi təsdiqlənib. Növbəti ildə həmin gəminin işçi layihəsinə başlayacağıq. Sərnişin katerinə gəldikdə isə eskiz işlərini yeni tamamlamışıq. Hazırda təsnifat layihəsinin icrasına hazırlaşırıq.













Direktorun sözlərinə görə, gəmilər layihələndirilərkən hər detala fikir verilir. Bu zaman sifarişçilərlə yanaşı, istismarçıların, yəni dənizçilərin də rəyləri öyrənilir, təklifləri nəzərə alınır.

**- Oyrad müəllim, haqqında danışdığınız gəmilər hansı üstünlüklərə malik olacaq?**

- Layihələndirdiyimiz 300 kVt gücə malik təchizat gəmisi yedək əməliyyatı da apara biləcək. Gəmi, həmçinin 12 nəfər sərnişin tutumuna, 5 ton qaldırıcı qüvvədən ibarət yük göyərtəsinə və bir tonluq krana malik olacaq. Həm də kənar obyektlərdə yanğını söndürmək üçün zəruri vasitələrlə təmin ediləcək bu gəmi “ “Qaradağ”, “Cəmil Niftəliyev” gəmilərini əvəz edəcək. Dalğıc kateri də unikallığı ilə seçiləcək. O, istismarda olan “Geofizik” və kiçik həcmli “Orion”u əvəz edə biləcək. Sərnişin katerləri isə “PSK”-ları əvəzləyəcək. Sözügedən gəmilər “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda inşa olunacaq.

Layihələndirmə zamanı xarici təcrübədən də istifadə olunur. İnstitutun Odessa Dəniz Mühəndislik Bürosu ilə birgə müəssisəsi fəaliyyət göstərir. Bu əməkdaşlıq instituta böyük fayda verir.

Gənclərin üstünlük təşkil etdiyi kollektivdə yaşlılar da az deyil. Birbaşa gəmi layihələndirilməsi ilə məşğul olan veteranların zəngin təcrübəsi çox işdə gənclərin köməyinə çatır.

İnstitut təkcə “AXDG” QSC-nin sifarişlərini yerinə yetirmir. Kənar təşkilatlardan da sifarişlər daxil olur.

Oyrad Abdullayev deyir: “Lənkəran Mexanikləşdirmə” MMC ilə işimiz olub. Bu yaxınlarda Azneft İB-nin layihəsini bitirmişik.”

İnstitutda yeni proqram təminatlarından istifadə edilir. Tətbiq olunan proqramlar arasında “SEA SOLUTİON” (layihələndirilən gəmilərin səthlərinin 3D formatında riyazi modelini formalaşdırır), “SEA Hydro” (layihələndirilən gəminin hidrostatik xüsusiyyətlərini və dayanıqlığını müəyyənləşdirir), “EBrus” (layihələndirilən gəminin konstruksiyalarının möhkəmliyinin hesablanmasını təmin edir), “CADMATİC” (gəminin 3D formatında modelini formalaşdırır və gəminin tikilməsi üçün tələb olunan texniki sənədləri hazırlamağa imkan verir) var.

İnstitutda bütün layihələrin üçölçülü formatda həyata keçirilməsi strateji hədəf kimi qarşıya qoyulub. Bu, işin keyfiyyətinə və icra müddətinin qısaldılmasına təsir göstərən əsas məsələ hesab olunur.

İnstitut Azərbaycan Respublikası Dövlət Dəniz Administrasiyasının, “Rusiya Dəniz Gəmiçiliyi Registri”nin, “Azərbaycan Dəniz Gəmiçiliyi Registri”nin müvafiq şəhadətnamələrinə, tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi üçün Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin lisenziyasına malikdir.

“Xəzərdənizlayihə ETİ”-nin kollektivinin hədəfləri böyükdür. İnstitut daha iri gəmilərin layihələndirilməsi barədə düşünür. Bundan başqa, kadr bazası tam formalaşdırıldıqdan sonra xaricdən də sifariş qəbulu nəzərdə tutulur.

# “İSLAM SƏFƏRLİ” TANKERİ TEZLİKLƏ AÇIQ DƏNİZƏ ÇIXACAQ

***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsus “İslam Səfərli” tankerinin “Zığ” Gəmi Təmiri və Tikintisi Zavodunda əsaslı təmiri yekunlaşmaq üzrədir.***












Təmir prosesində tankerin baş mühərrikləri, nasoslar, elektrik mühərrikləri və digər mexanizmlər əsaslı təmir olunub. Köməkçi mühərriklər yenisi ilə əvəzlənib. Gəmidə elektrik avadanlıqlar sazlanıb.

Eyni zamanda tankerdə ümumi təmizləmə, gövdə hissəsində defektasiya, yük anbarlarında və ballast çənlərində qüsur aktlarına əsasən gövdə-qaynaq işləri görülüb. Üzən vasitənin sualtı və suüstü hissələri, göyərtəsi rənglənib.

Aparılan işlərin yoxlanılması üçün tanker zavod ərazisində dəniz sınağından da keçib. Aşkarlanan çatışmazlıqlar aradan qaldırıldıqdan sonra gəmi istismara veriləcək.

Xatırladaq ki, uzunluğu 125.06, eni 16.63 metr olan tankerin maksimal sürəti 11.3 uzeldir. Gəmiçiliyin nəqliyyat donanmasına məxsus gəmi maye yüklərin daşınmasında istismar edilir.

Məlumat üçün bildirək ki, gəmiçiliyin Dəniz Nəqliyyatı Donanması müxtəlif təyinatlı yüklərin və sərnişinlərin daşınmasını həyata keçirir, rabitə, radiomərkəz və elektroradionaviqasiya üzrə müxtəlif xidmətlərin göstərilməsini təşkil edir, gəmilərin yüklənib-boşaldılmasını və yedək əməliyyatlarını, dibdərinləşdirmə işlərini aparır, habelə dəniz yolları naviqasiya işarələrinin yerləşdirilməsini və onların saz vəziyyətdə saxlanılmasını təmin edir, gəmilərin texniki istismar qaydalarına müvafiq olaraq vaxtında və keyfiyyətlə təmir edilərək Dəniz Registrinə təqdim olunması üçün tədbirlər görür.

Dəniz Nəqliyyatı Donanmasının strukturuna Quru yük liman məntəqəsi, Gəmi təmiri emalatxanası, Gəmi dalğıc və xilasetmə vasitələrinə xidmət üzrə stansiya və nəqliyyat gəmiləri daxildir.

## NAZİRLƏR KABİNETİ 2018-Cİ İLDƏ NOVRUZ, RAMAZAN, QURBAN BAYRAMLARI İLƏ BAĞLI QƏRAR QƏBUL EDİB

***Azərbaycan Respublikasının Nazirlər Kabineti 2018-ci ildə Novruz, Ramazan, Qurban bayramları ilə bağlı qərar qəbul edib.***



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, qərara əsasən 2018-ci ildə 20, 21, 22, 23, 24 mart Novruz bayramı, 15, 16 iyun Ramazan bayramı, 22, 23 avqust Qurban bayramıdır.

Qanunvericiliyə uyğun olaraq, həmin günlər iş günü hesab edilmir.

## “QUEEN ELİZABETH” TƏYYARƏDAŞIYAN GƏMİSİ RƏSMƏN BRİTANİYA DONANMASINA DAXİL EDİLİB





***Dekabrın 7-də Böyük Britaniyanın ən iri, müasir və ən bahalı təyyarədaşıyan gəmisi olan “Queen Elizabeth” rəsmən Krallığın Hərbi Dəniz Qüvvələrinin tərkibinə daxil edilib.***

TASS informasiya agentliyi xəbər verir ki, təntənəli mərasim Portsmut hərbi bazasında 3,7 min qonağın iştirakı ilə keçirilib.

Mərasimdə, həmçinin kraliça II Elizabet də iştirak edib. 91 yaşlı kraliçanın Britaniya donanmasının flaqmanının göyərtəsinə rahat qalxması üçün xüsusi lift quraşdırılıb. Kraliça öz çıxışında təyyarədaşıyan gəminin yaxın onilliklər boyu dənizlərdə Britaniya gücünün göstəricisi olacağını deyib.

Qeyd edək ki, göyərtəsində 40 təyyarə və 1600 heyət üzvünü daşıya bilən “Queen Elizabeth” gəmisinin tikintisi 8 il davam edib və 3,1 milyard funt-sterlinqə (4,1 milyard dollar) başa gəlib.

# MÜASİR İQTİSADİ ŞƏRAİTDƏ DƏNİZ NƏQLİYYATININ İNKİŞAFINDA MARKETİNQ ANLAYIŞI

***Hazırda bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən müəssisələrdə, şirkətlərdə və təşkilatlarda satış fəaliyyətini idarə etmək üçün marketinq xidmətlərinin rolu böyükdür. Bu fəaliyyət istiqaməti təkcə kommersiya strukturlarında deyil, həmçinin dövlət, sənaye, nəqliyyat, humanitar və s. təşkilatlarda da xüsusi əhəmiyyətə malikdir.***

Ölkəmizdə dəniz nəqliyyatının və ya gəmiçiliyin yaranma tarixi 1858-ci ilə təsadüf edir. Həmin il Rusiya senatının fərmanı ilə «Qafqaz və Merkuri» Səhmdar Dənizçilik Cəmiyyəti fəaliyyətə başlayıb. Xəzər Dəniz Gəmiçiliyi 1992-ci ilə qədər SSRİ Dəniz Donanması Nazirliyinin tərkibindəki 17 gəmiçilik idarəsindən biri idi. SSRİ dağıldıqdan sonra 15 Sovet Respublikasından 7-si SSRİ dəniz donanmasının varisinə çevrildi. Xəzərdə bu varislik ancaq Azərbaycana nəsib oldu. 26 il çətin dönəmdən keçmiş ölkəmiz nəticədə iqtisadi və siyasi azadlıq qazanmışdır. Bütün sahələrdə inkişaf etməkdə olan Azərbaycan nəqliyyat sahəsində də nailiyyətlər əldə etmişdir. Bu sahələrdən biri də dəniz nəqliyyatıdır.

Son illərdə tranzit yüklərin əsas hissəsinin məhz su yolu ilə daşınması, ölkənin iqtisadi inkişafında əhəmiyyətli yer tutması bir daha bu sahənin təkmilləşdirilməsini tələb etdi. Prezident İlham Əliyevin apardığı düzgün siyasətin nəticəsi olaraq dənizçilik fəaliyyətinin yenidən yaradılması, təkmilləşdirilməsi və genişləndirilməsi məqsədi ilə 2014-cü ildə mühüm sərəncam imzalandı. Ölkənin iki böyük dəniz donanmasının birləşməsi nəticəsində “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC yarandı. Bununla da, dəniz nəqliyyatının imkanlarını və perspektivləri daha da gücləndi. Eyni zamanda, 2015-ci ildə “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-nin yaradılması bu sahənin ölkəmiz üçün strateji əhəmiyyətli olduğunu bir daha isbat etdi.

### Dəniz nəqliyyatı xidmətində marketinq fəaliyyətinin rolu

Tarix boyunca yük və sərnişin daşımasında dəniz nəqliyyatından daim istifadə edilib. İlk yelkənli sallardan tutmuş günümüzün müasir texnoloji gəmilərinə kimi dəniz nəqliyyatı müxtəlif inkişaf mərhələlərindən keçib. Demək olar ki, dünya ticarətinin inkişafı və tarixində dönüş nöqtələrindən biri olan coğrafi kəşflər, sənaye inqilabı və ardınca da buxarlı gəmilərin icadı dəniz nəqliyyatının inkişaf mərhələlərinə aiddir. Dünya ölkələrinə nəzər salsaq, aydın görərik ki, dəniz yolu imkanları geniş ölkələr sürətli inkişaf edib və sosial rifah hallarını yüksəldiblər. Bunun əsas səbəbi odur ki, dünya ticarətinin inkişafında, ölkələr arası ticarətin qurulmasında, istehsalçı şirkətlərin öz məhsullarını digər ölkələrə daşımasında dəniz nəqliyyatının payı çox böyükdür. Hazırda dəniz nəqliyyatı rəqabətqabiliyyətliyi, qiymət baxımdan sərfəli olması və yükgötürmə imkanlarına görə xeyli cəlbedici sayılır. Elə buna görə də, dünya yük daşımasının 84-85% su nəqliyyatının payına düşür.

Təbii ki, bugünki rəqabətli bazarda yer almaq, bazar payını artırmaq, istehsal və xidmət müəssisələri üçün ən vacib strateji tələbə çevrilib. Hər bir müəssisənin qarşısında inkişaf prioriteti durur ki, bu da sonda müəssisə üçün mənfəətin yaranmasına səbəb olur. Əgər müəssisə müəyyən zaman ərzində gəlir (mənfəət) əldə etməzsə, gələcəkdə o fəaliyyətin davamlı olması şübhə altına düşür. Buna görə müasir bazar iqtisadiyyatı şəraitində müəssisələrin inkişaf etməsi üçün bir çox müasir tələblər var. Bunlardan ən vacibi isə müəssisələrdə marketinq fəaliyyətinin təşkili və idarə olunmasıdır.




Hər bir müəssisənin – iri, ya kiçik, kommersiya, ya qeyri-kommersiya, yerli, ya xarici olmasından asılı olmayaraq uğur qazanmasında müasir marketinq metodları mühüm əhəmiyyət kəsb edir. (1)

Marketinq sözünü (ing. dilində marketing-bazarlama) geniş ifadələrlə “bazar iqtisadiyyatı şəraitində müəssisələrin iqtisadi üsullarla idarəedilməsi” kimi anlamaq mümkündür. Marketinq XX əsrin əvvəllərindən ölkələrin iqtisadi inkişafından, iri həcmli istehsal müəssisələrinin qurulmasından, kəskin rəqabət şəraitinin formalaşmasından, təklif bazarlarının tələb bazarlarını üstələdiyi bir zamanda müstəqil fəaliyyət kimi ortaya çıxdı. Ümumiyyətlə, marketinq digər sahələrdən fəqli olaraq istehlakçılarla (müştərilər) daha çox məşğul olur və onların maraqlarına uyğun fəaliyyətini təşkil edir. Marketinqin 2 əsas məqsədi vardır:

1. Xidmət və ya məhsula yeni istehlakçılar cəlb etsin;
2. Mövcud istehlakçıları məmnun etməklə öz tərəfində saxlasın.

Bir çoxlarımız marketinqin satış və reklamdan ibarət olduğunu düşünürük. Çünki, biz gün ərzində radio, televiziya, telefon zəngləri və müxtəlif formalarda satış hücumlarına məruz qalırıq. Əslində marketinq fəaliyyəti çox geniş və şaxəlidir. Aşağıdakı qrafikdən də aydın görsənir ki, marketinq fəaliyyətinə daxil olan strukturlar və fəaliyyət sferaları hansılardır.

Qrafik 1.




### Marketinq fəaliyyət dairəsi

Bir çox fəaliyyəti özündə birləşdirən marketinq hər bir müəssisə üçün vacib olmaqla bərabər gələcəkdə müəssisə rəhbərinin düzgün qərar verməsi üçün bazar, müştəri və satışla (tələblə) bağlı əhəmiyyətli məlumatlar məhz bu sahədə cəmləşir. Bunlarla yanaşı, marketinq fəaliyyət dairəsinə aşağıdakı fəaliyyətləri də daxil etmək lazımdır:

- *xarici ətraf mühitin təhlili;*
- *bazarın araşdırılması və tədqiqatları;*
- *müəssisənin daxili mühitinin təhlili;*
- *bazar seqmentasiyası və hədəf bazarının seçilməsi;*
- *müəssisənin marketinq fəaliyyət planının hazırlnması;*
- *xidmət və məhsul seqmentasiyası və çeşidlənməsi;*
- *xərc təhlilləri və qiymət siyasəti;*
- *satış planlaması və satış kanallarının yaradılması;*
- *bazarda mal və ya xidmətin reklam və tanıtım təşviqi. (1)*

### Nəqliyyat bazarının nəqliyyat növləri üzrə seqmentləşdirilməsi

Məlumdur ki, nəqliyyat sahəsi növlərinə görə dəniz, hava, avtomobil, kəmər və dəmir yolu nəqliyyatlarına bölünür. Boru kəmər nəqliyyatı istisna olmaqla nəqliyyat xidmətləri bazarının seqmentləşdirilməsi iki istiqamət üzrə qruplaşdırılır. Bunlar da sərnişin və yük daşımalarıdır.

Nəqliyyatda marketinq fəaliyyətinin əsas funksiyalarına aşağıdakıları aid etmək olar:

- bazarın kompleks araşdırılması, öyrənilməsi və tədqiqi;
- istehsalın bazar tələblərinə uyğunlaşdırılması;
- nəqliyyat xidmətlərinin bazara irəlilədilməsi.

Hər bir nəqliyyat növünün özünəməxsus üstünlükləri var. Bunlar aşağıdakı cədvəldə vacib meyarlar üzrə təhlil xarakterində verilib.

Cədvəl 1.

**Ayrı-ayrı nəqliyyat növlərinin reytinqi**

| GÖSTƏRİCİLƏR | NƏQLİYYAT NÖVLƏRİ | | | |
|---|---|---|---|---|
| | DƏMİR YOLU | AVTOMOBİL | DƏNİZ | HAVA |
| Sürət | 3 | 2 | 4 | 1 |
| Yükgötürmə qabiliyyəti | 1 | 4 | 2 | 3 |
| Səmərəlilik | 2 | 3 | 1 | 4 |
| Sərnişinlər üçün təhlükəsizlik | 1 | 3 | 2 | 4 |
| Ekoloji təhlükəsizlik | 1 | 2 | 3 | 4 |
| Manevrilik | 3 | 1 | 4 | 2 |
| Təbii – iqlim amillərindən asılı olmamaq | 1 | 2 | 3 | 4 |

Əslində cədvəldə hər bir nəqliyyat növünün üstün və zəif olduğu məqamlar var. Təbii ki, bunlar həmin nəqliyyat növünün mənfi və ya müsbət olmasını təyin etmir. Bu göstəricilər xidmətdən istifadə edən şəxslər və şirkətlərin qarşılarına qoyduqları meyarlar üzrə təsnifatlandırılır. Cədəvələ nəzər salsaq hava nəqliyyatının sürətli olması üstünlükdürsə, səmərəlik, ekoloji təhlükəsizlik və başqa göstəricilər üzrə geridə qalıb. Dəniz nəqliyyatı isə orta mövqedə yer alır, yük götürmə qabiliyyəti, təhlükəsizlik, səmərəlilik kimi göstəriciləri üstünlük təşkil etdiyi üçün sərfəli nəqliyyat növü kimi istehlakçılar tərəfindən qiymətləndirilir.

Respublikamızda yük daşımaları dövriyyəsinə görə 3-cü yerdə qərarlaşan dəniz nəqliyyatı aşağıdakı daşıma növlərinə bölünür.

• limanlararası daşıma – kiçik kabotaj. Bir dənizin iki limanı arasında həyata keçirilən daşımalar limanlararası daşımalar hesab olunur. Məsələn, Bakı – Türkmənbaşı, Bakı – Mahaçqala və Bakı – Həştərxan;

• birbaşa daşıma – böyük kabotaj. Müxtəlif dənizlərlə respublika limanları arasındakı daşımalar birbaşa daşımalar adlanır. Məsələn, Bakı – Həştərxan – Volqoqrad – Rostov – Novorossiysk;

• qarışıq daşımalar. Dəniz – çay – dəmir yolu – avtomobil nəqliyyatı ilə daşımalara qarışıq daşımalar deyilir. Məsələn, Rostov – Bakı (Volqa çayı) – Türkmənbaşı (Xəzər dənizi);

• xarici daşımalar. Xəzər dənizinin sahilindəki limanlarla xarici ölkələrin dəniz limanları arasındakı yükdaşımalar xarici yükdaşımalar adlanır. (2)

Dəniz nəqliyyatı yolları təbii yollar kateqoriyasına aiddir. Bu da dənizlərdən, okeanlardan ibarətdir. Dəniz yolları ciddi investiya, cari təmir və əlavə xərclər tələb etmir. Bunlar dəniz nəqliyyatının daşınma bazarında lider olmasının ən vacib meyarıdır.

Ölkəmizdə dəniz nəqliyyatı və ya gəmiçilik fəaliyyətinin üstün və zəif cəhətləri vardır. Bunları GZİT (SWOT) təhlildə görmək olar. Bu təhlil forması ilə biz dəniz nəqliyyatının güclü tərəflərini, zəif tərəflərini, imkanlarını və təhlükələrini qısa şəkildə göstərməyə çalışacağıq.

Qrafik 2




*Qeyd edilmiş siyahını daha da geniş şəkildə yazmaq mümkündür. (3)*

Dəniz nəqliyyatının güclü tərəfləri aşağıdakılardır:

• Ölkədə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi kimi 160 illik tarixi müəssisənin olması;

• Bakı Beynəlxalq Ticarət Limanının yaradılması və başqa limanların olması;

• Azad Ticarət Zonasının yaradılması;

• Dəniz nəqliyyatı mütəxəssislərinin yetişməsi üçün Ali təhsil mərkəzinin olması (Azərbaycan Dövlət Dəniz Akademiyası);

• Dənizçilərin hazırlanması və sertifikatlaşdırılması ilə bağlı Təlim Tədris Mərkəzinin olması;

• İri gəmi təmir zavodlarının olması;

• Tranzit yüklərin daşınmalar üçün əlverişli coğrafi mövqedə olması;

• “İpək yolu” layihəsində ölkəmizin Avropa və Asiya arasında körpü rolunda olması;

• Bakı Gəmiqayırma Zavodunun uğurlu fəaliyyəti (gəmi tikinti zavodu)

• Neft ixrac edən ölkə olması;

• Dəniz nəqliyyatının investiyası tələbinin az olması;

• Dəniz nəqliyyatının tariflərinin daha ucuz və sərfəli olması;

• Dünya yük dövriyyəsinin 85%-nin dəniz nəqliyyatı ilə daşınması;

• Gəmilərin böyük yükgötürmə qabiliyyətinə görə yüksək məhsuldarlığı;

• İşin fasiləsizliyi (dəniz nəqliyyatı sutkada 24 saat işləyir);

• Hava şəraitindən qeyri -əhəmiyyətli dərəcədə asılılığı;

• Tələbdən asılı olaraq bir yerə daha tez səfərlər etmə qabiliyyəti (gəmini dünyanın istənilən nöqtəsinə göndərmək olar);

• Təcrübi olaraq dəniz əlaqə yollarının buraxma qabiliyyətinin qeyri-məhdudluğu.

Dəniz nəqliyyatının zəif tərəfləri aşağıdakılardır:

• Nisbətən aşağı sürət (yük gəmiləri üçün 18 – 20 uzel, uzel = mil/saat, dəniz mili = 1837 m);

• Müqayisədə böyük olmayan hərəkət sıxlığı (ancaq birdəfəlik böyük miqdarda yükü daşıya bilir);

• Daşıma zamanı yüklərin diqqətlə (səliqəli) qablaşdırılması tələb olunur;

• Ölkəmizin birbaşa okeana çıxışının olmaması;

Dəniz nəqliyyatının imkanları aşağıdakılardır:

• Azad Ticarət Zonasının fəaliyyətinin təşkili;

• Müasir gəmilərin tikilməsi;

• Ölkəmizin iqtisadi imkanlarının genişlənməsi və ölkələr arası iqtisadi əlaqələrin qurulması;

• İpək yolunun yenidən fəaliyyətinin bərpası;

***Dəniz nəqliyyatının təhlükələri aşağıdakılardır:***

• Okean suallarına çıxışın digər ölkələrdən asılı olması Volqa-Don kanalı (qonşu ölkə ilə siyasi fikir ayrılıqları olduğu halda kanalın istifadəsi məhdudlaşa bilər)

Bu təhlilin nəticəsində dəniz nəqliyyatının strateji əhəmiyyəti müəyyən olunur və onun əsasında strategiya hazırlanaraq fəaliyyət planı tərtib edilir. Strateji planlaşdırmada aşağıdakı mümkün strategiyaları ayırmaq mümkündür.

- bazara dərin nüfuz;
- texnoloji strategiya;
- aşağı qiymət strategiyası;
- məhsul yenilik strategiyası;
- əməkdaşlıq strategiyası;
- diversifikasiya strategiyası;
- beynəlxalq və qloballaşma strategiyası.

Strateji planlaşdırmanın son mərhələsi fəaliyyət proqramının hazırlanması və büdcəsinin təyin edilməsidir. Fəaliyyət proqramının hazırlanması zamanı mütləq şəkildə müəyyən edilmədir ki, nə ediləcək, kim edəcək, hansı zaman ərzində ediləcək və ən əsası bu addım nə qədər xərc tələb edəcək. Bu fəaliyyət proqramının əsasında qarşıya qoyulmuş məqsədə hansı zamanda kim tərəfindən və hansı büdcə ilə həyata keçirmək mümkün olacaq kimi sualların cavabını tapmış olacağıq.

Müasir dövrdə iqtisadi münasibətlər sisteminin inkişafı ilə əlaqədar ölkədə müxtəlif fəaliyyət sahələri yaranmaqdadır. Amma bu müəssisələrin gələcəkdə uğurlu olub-olmaması barədə mülahizə yürütmək çox çətindir. Ümumiyyətlə, təcrübələr göstərir ki, hər müəssisəni inkişafa aparan bir çox zəruri amil var. Buna misal kimi idarəetmə keyfiyyəti, peşəkar kadrların cəlbi, müasir texnologiya və texnikadan istifadə, beynəlxalq standartların tələbinə cavab verən məhsul istehsalı və ciddi şəkildə bazarın öyrənilməsi kimi amilləri göstərə bilərik. Müəssisənin inkişafı üçün zəruri olan marketinq fəaliyyəti də bu amillər içərisində yer alır. Buna görə nəqliyyat sahəsində, dəniz nəqliyyatı müəssisələrində marketinq fəaliyyəti təşkil olunmalıdır və ya belə bir struktur varsa təkmilləşdirilməlidir. Belə ki, nəqliyyat bazarını dərindən təhlil etməklə, ölkənin dəniz nəqliyyatı ehtiyaclarını və müştəri məmnuniyyətini öyrənməklə marketinq fəaliyyəti qurulmalıdır. Bu fəaliyyətlərin düzgün tətbiqi dəniz nəqliyyatının inkişafına və ölkə iqtisadiyyatına müsbət təsir göstərə bilər.

**Namiq Əlizadə,**
*iqtisadiyyat üzrə fəlsəfə doktoru,*
***Azərbaycan Dövlət Dəniz Akademiyasının Təlim-Tədris Mərkəzinin “Biznes İnkişafı” qrupunun rəhbəri***



## KULEVİ LİMANI 2200-CÜ TANKERİ QƏBUL EDİB

***SOCAR-ın Gürcüstandakı aktivi olan Kulevi neft terminalının limanı indiyədək 2 min 200 tankeri qəbul edib və yola salıb.***

Terminalın saytı xəbər verir ki, Kulevi limanı 2008-ci il mayın 16-da fəaliyyətə başlayıb. Ötən doqquz ildə limanın tutumu artırılıb. Həmçinin də qəbuletmə, yükləmə və yolasalma əməliyyatlarının payı artıb, nəticədə isə liman 2 min 200 tankeri qəbul edib və yola salıb. Liman ilboyu fasiləsiz fəaliyyət göstərir.

Liman 2100-cü tankeri bu il may ayının sonunda qəbul etmişdi.

Qeyd edək ki, Kulevi neft terminalı və limanı 2008-ci ilin mayında istismara verilib. Bir ay sonra limana ilk tanker yan alıb.

## “PORT SAİD” LİMANINA TƏBİİ QAZ NƏQL OLUNUR



***Misir Aralıq dənizi sahilində yerləşən “Port Said” limanına təbii qaz nəqlinə başlayıb.***

Bu barədə Misirin Neft Nazirliyi məlumat yayıb. Nazirliyin məlumatına görə, “Port Said” limanındakı zavoddan ilkin mərhələdə 350 milyon kubmetr qaz istehsal edilib.

Misirin neft naziri Tarek El-Molla deyib ki, aparılan sınaqlardan sonra ilk təbii qaz nəqli müvəffəqiyyətlə həyata keçirilib.

İtaliyanın “Eni” şirkəti 2015-ci ildə bölgədə təbii qaz ehtiyatlarını tapıb. Hesablamalara görə, buradakı ehtiyat 30 trilyon kubmetr həcmində qiymətləndirilir.



## SÜNİ İNTELLEKT 2,3 MİLYON YENİ İŞ YERİ YARADACAQ

***Süni intellekt texnologiyalarının inkişafı və geniş tətbiqi robotların iş yerlərində tez-tez insanları əvəzləməsi ilə nəticələnir. Eyni zamanda, kompüterlər yeni iş yerləri yaradır və bir neçə il sonra onların sayı süni intellektə görə işdən çıxarılanların sayını üstələyəcək.***

“Gartner” analitiklərinin proqnozuna görə, 2020-ci ildə süni intellekt 2,3 milyon yeni iş yeri yaradacaq.

Süni intellektin kadr bazarına təsir dərəcəsi sahədən asılı olacaq: bəzi sahələrdə iş yerlərinin sayı bir neçə il ərzində azalacaq, digər sahələrdə, məsələn, səhiyyə, təhsil və dövlət sektorunda bu göstərici ən azı 2019-cu ilədək artacaq.

Sürücüsüz avtomobillər, robot dayələr, insanların işə qəbulu üzrə avtomatik sistemlər və digər süni intellekt texnologiyaları insanları narahat edir. “Pew Research” şirkəti bu ilin oktyabrında amerikalılar arasında keçirilmiş sorğunun nəticələrini dərc edib. Məlum olub ki, ABŞ əhalisinin 70 faizi avtomatlaşdırmadan və iş yerini itirməkdən qorxur.

## SINDIRILDIQDAN SONRA YENİDƏN BƏRPA OLUNAN ŞÜŞƏ YARADILIB

***Tokio Universitetinin alimləri sındırıldıqdan sonra yenidən bərpa olunan şüşə yaradıblar.***



life.ru saytı xəbər verir ki, alimlər əsas kimi sintetik polimerdən (polikarbonat) istifadə ediblər. Polimerlərdən yaradılan bərk şüşə əvvəlcə iki hissəyə bölünərək sonradan birləşdirilib. Bunun üçün yarıya bölünən şüşənin otaqda adi temperaturda birləşməsinə iki dəqiqə lazım olub. Strukturun tam möhkəmlənməsi və ağırlıqlara dözməsi üçün 1-6 saat gözləmək lazımdır.

Alimlərin fikrincə, şüşənin yenidən bərpası bölünmüş polimer molekullarının əvvəlki halına qayıdan hidrogen birləşmələrinin effekti sayəsində baş verir.

Tokio Universitetinin professoru Yusuke Yanaqisavanın sözlərinə görə, belə xüsusiyyətlərə malik şüşələr ekologiya üçün daha zərərsizdir.

## GƏMİÇİLİK III MƏZUN-KARYERA SƏRGİSİNDƏ İŞTİRAK EDİB





***“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC Azərbaycan Dövlət Neft və Sənaye Universitetində keçirilən III Məzun-Karyera sərgisində iştirak edib.***

Sərgidə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC ilə yanaşı, 98 şirkət ADNSU-nun tələbə və məzunlarlarına ümumilikdə 487 vakansiya üzrə iş yerləri təklif edib. 2000-dək tələbə və məzunun iştirak etdiyi sərgi böyük maraqla qarşılanıb.

ADNSU-nun rektoru, professor Mustafa Babanlı III Məzun-Karyera Sərgisinin ilk dəfədir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə keçirildiyini qeyd edib. Rektor bu dəfəki sərginin şirkətlərin və təqdim olunan vakansiyaların sayına görə əvvəlkilərdən daha geniş miqyaslı olduğunu bildirib.

M.Babanlı ADNSU-da Məzun-Karyera Mərkəzinin iki ildir fəaliyyət göstərdiyini və Mərkəzin sərginin təşkili ilə yanaşı, yuxarı kurs tələbələri üçün işə düzəlməklə bağlı üzləşə biləcəkləri məsələlərə dair təlimlər təşkil etdiyini qeyd edib.

O, ADNSU-da gündəlik təcrübə proqramı layihəsinin gerçəkləşdirildiyini, hazırda 3 fakültənin bazasında gerçəkləşdirilən bu proqramın müəssisələrin dəstəyi ilə bütün universitet səviyyəsində uğurla həyata keçirilə biləcəyini vurğulayıb.

Açılış mərasimindən sonra ADNSU-nun rektoru, professor Mustafa Babanlı, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, Təhsil Nazirliyinin və Dövlət Məşğulluq Xidmətinin nümayəndələri digər şirkətlərlə yanaşı, AXDG-nin stendi ilə də tanış olub və təklif olunan vakansiyalar barədə söhbət ediblər.

## İPƏK YOLUNA AİD TARİXİ XƏRİTƏ MUZEYƏ QAYTARILIB



***Çində İpək Yoluna aid orta əsrlərdə çəkilmiş rəngli xəritə Pekin Saray Muzeyinə təqdim edilib.***

30 metr uzunluğu, 59 santimetr eni olan xəritənin Çində Min sülaləsinin (1368-1644-cü illər) hakimiyyəti dövründə ipək parça üzərində çəkildiyi güman olunur. Xəritədə Min sülaləsi dövründə Çin səddinin qərb qurtaracağında yerləşən Ciayuquan şəhərindən başlanğıcını götürən və Mərkəzi Asiyadan keçməklə Qərbi Asiyaya, Yaxın Şərqə qədər uzanan ticarət yolları, habelə İpək Yolu üzərində yerləşən 221 şəhər qeyd olunub. Təəssüf ki, orijinal xəritənin təxminən dördəbiri – Məkkədən İstanbula qədər olan hissə yoxdur. Mütəxəssislər güman edirlər ki, xəritəni alan kolleksiyaçılardan biri həmin hissəni ayrıca satmaq üçün kəsib götürüb.

Qeyd edək ki, başqa adı “Qadağan olunmuş şəhər” olan Pekin Saray Muzeyi 1420-ci ildən imperator sarayı kimi fəaliyyət göstərib. Çində 1911-ci ildə monarxiya devriləndən sonra saraydakı bir çox dəyərli əşya, o cümlədən qeyd olunan xəritə it-bata düşüb. Xəritəni 1930-cu ildə yapon iş adamı əntiq əşyalar dükanından alıb. Əsər 2002-ci ildən sonra bir neçə dəfə fərdi kolleksiyaçılar tərəfindən alınıb-satılıb. Onu sonucu dəfə ötən il 20 milyon ABŞ dollarına alan Huy Vin Mau adlı honqkonqlu iş adamı əsəri Pekin Saray Muzeyinə hədiyyə edib.

Muzey rəhbərliyi xəritənin İpək Yolu üzərində yerləşən ölkələrə dair arxeoloji, coğrafi və linqvistik baxımdan tədqiqata töhfə verəcəyini bildirib. Əsər müvafiq bərpa prosesindən sonra muzeydə ictimaiyyətə nümayiş olunacaq.

*Şahin Cəfərov*

## AĞRI HİSS ETMƏYƏN AİLƏ

***İtaliyanın 52 yaşlı sakini Letisiya Marsili hələ uşaq yaşlarında hamı kimi olmadığını anlayıb. O, demək olar ki, ağrı hiss etmir, bədəninin bir yerinin yandığından və ya sümüyünün sındığından xəbəri olmur.***



BBC telekanalı xəbər verir ki, bu ailənin 5 üzvü də adi insana ağrıkəsici lazım olduğu vəziyyətlərdə ağrı hiss etmir.

“Bizim həyatımız adi, normal şəkildə və ola bilsin ki, digər ailələrdən daha yaxşı keçir. Çünki biz nadir hallarda özümüzü pis hiss edirik və demək olar ki, ağrımırıq. Düzünü desək biz ağrı hiss edirik, lakin o, cəmi bir neçə saniyə çəkir”, - deyə Letisiya Marsili bildirib.

Alimlər hesab edirlər ki, Marsili ailəsinin üzvlərinin bəzi əsəb hüceyrələri digər insanlarda olduğundan fərqli işləyir.

Mütəxəssislər belə yüksək ağrı qüsuruna səbəb olan gen mutasiyasını aşkarlamağa çalışır və onu Marsili sindromu adlandırırlar. Onlarin fikrincə, bu fenomenin tədqiqi xroniki ağrı sindromundan əziyyət çəkən insanların müalicəsinə kömək edə bilər.

“Biz ağrı sindromunun müalicəsinin yeni üsulunun kəşfinə yaxınıq”, - deyə Siena Universitetinin professoru Anna Mariya Aloizi qeyd edib.

## “ISPACE” ŞİRKƏTİ AYDA SU EHTİYATLARI AXTARACAQ




***Yaponiyanın “Ispace” şirkəti Ayda su axtarışı məqsədilə Yerin bu peykinə enəcək iki aparatın hazırlanmasına başlayacaq.***

NHK telekanalı xəbər verir ki, “Ispace” şirkəti həmin layihənin maliyyələşdirilməsi üçün 12 investisiya şirkəti tərəfindən 89 milyon dollar vəsait ayrılacağı barədə məlumat yayıb.

Ayda su ehtiyatlarının axtarışı üzrə missiyanın 2019-2020-ci illərdə həyata keçirilməsi planlaşdırılır. Astronavtların burada sudan istifadə edəcəkləri və eyni zamanda, kosmik aparatın idarəsi üçün hidrogen və oksigendən faydalanacaqları gözlənilir.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp dekabrın 11-də NASA-nın əməkdaşlarına Marsa pilotlu uçuşların həyata keçirilməsinə hazırlıq məqsədilə Ayda stansiyanın inşası barədə göstəriş verib.

## YARIZARAFAT, YARIGERÇƏK

**İş görə bilməyənlər adətən bir işin üstünə düşməkdənsə, kiminsə üstünə düşməyi xoşlayırlar.**

**İndiki zamanda arxada da gözü olmayanın qabaqdakı gözləri həmişə dörd olmalıdır.**

**Su içməyi xoşlamadığım üçün çox adamdan gözüm su içmir?**

**Özü düz olmayan, yalanla həqiqəti necə ayırd edə bilər?**

**Yarısı doğru olan yalanlar daha qorxuludur. İnananı çox olur.**

**Çatışmayan ağıl deyilsə, nəyinsə çatışmamasının eybi yoxdur.**

**Dünyaya sonuncu dəfə baxmaq məcburiyyətində qalsam, dünyaya bir də mənim kimisi gəlməyəcəyi üçün əksimə baxmaq istərdim.**

**Yaxşı fikir dənizdə balıq kimidir. Kim tutsa, o da qazanır.**

**Yalnız qazanmağı düşünən, çətin ki, hörmət də qazansın.**

**Hər kəs bizdən yalnız onları qane edən həqiqəti istəyir. Nə həqiqətdir o?**

**Başqasının pulunu oğurlayana neçə il iş verirlər. Başqasının fikirlərini oğurlayanlar isə mükafat umurlar.**

**Hətta danışmağa heç nə tapmayanda da, qadınlar haqqında pis danışmayın.**

**Dənizə heç vaxt heç kim heç nə bağışlamayıb. Nə bağışlayıbsa, dəniz bağışlayıb.**

**Özü-özünə kömək etmək istəməyənə Allah da çətin ki, kömək edə.**

**Səni satmalarını istəmirsənsə, etibar etmə.**

**Dürüst olmağın nəyi pisdir ki, dürüst adama dəvə nalbəndə baxan kimi baxırlar?**

**Yaşlandıqca sanki illərin ömrü qısalır.**

**Mənliyi olmayanlar insanlığın fərariləridir.**

**Nəyin bahasına olursa-olsun nə isə olmaq istəyənlər niyə adam olmaq istəməsinlər?**

**Ara qatmağın min yolunu bilən, insan olmağın bir yolunu niyə bilməsin?**

**Məsuliyyət hissindən heç kəs azad deyil.**

**Bəzi analar bilsə ki, necə oğullar doğublar, təkcə qız doğarlar.**

**Pislikləri görməmək üçün pislikləri yox etmək lazımdır.**

**Axmaqlar adətən özlərini ağıllı, vəzifəsi olan axmaqlar isə dahi sayırlar.**

**Allah, sən saxla. Kimin nədən başı çıxmırsa, mütləq gərək o işlə məşğul olsun?**

**Allaha inananın ayaqlarını yerdən üzmək istəyənlər əvvəlcə əllərini Göydən üzməlidirlər.**

**Yaltaqlıq bəzi adamların boynuna biçilib.**

**Çox yerdə yerini tutduqları üçün haqq yerini gec tutur?**

**Hər kəs qəhrəman ola bilməz. Amma bu, kişilikdən imtina üçün əsas deyil.**

**Təzə işçilər özləri ilə təzə pis əməllər gətirməməlidirlər.**

**Yaltaqlara çox yerdə yer olmasaydı, yaltaqlar belə yerbəyer ola bilməzdilər.**

**Bəzi adamlara elə gəlir ki, ”qa” deyəndə də onlara mükafat verilməlidir, “qu” deyəndə də.**

**İnsan nə qədər cılızdırsa, o qədər də yekə-yekə danışmağa meylli olur.**

**“Baş üstə!” pis söz deyil. Amma başı olan işlətsə.**

**Boğazlarında nə isə qaldığı üçün çox adam boğazdan yuxarı danışır?**

***Rasif TAHİROV***






## DÜNYA TAEKVONDO FEDERASİYASININ YENİ REYTİNQ CƏDVƏLİNİN İLK ONLUĞUNDA ÜÇ AZƏRBAYCAN İDMANÇISI YER ALIB

***Dünya Taekvondo Federasiyasının Olimpiya çəkiləri üzrə yeni reytinq cədvəli Azərbaycan idmançıları üçün uğurlu olub.***

Dekabr üçün tərtib olunan siyahıda yığmamızın üç taekvondoçusu yer alıb.

Hesabında 435,66 xal olan "Rio-2016" Yay Olimpiya Oyunlarının qalibi, dünya və Avropa çempionumuz Radik İsayev 80 kiloqramdan yuxarı çəki dərəcəsində yenə də birinci pillədədir.

Dünya çempionumuz Milad Beiqi Harçeqani (80 kq) 469,86 xalla reytinq cədvəlində birinci yerdə qərarlaşıb.

Altmış səkkiz kiloqram çəki dərəcəsində "Bakı-2015"in və İslamiadanın çempionu olan Ayxan Tağızadə 207,15 xalla yeddinci pillədə yer alıb.

Qeyd edək ki, reytinq xalları Dünya Taekvondo Federasiyasının təşkil etdiyi yarışlarda idmançıların aktivinə yığılan xallara əsasən verilir. Taekvondo qaydalarına görə 2020-ci ildə Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarınadək reytinq xalları sayəsində cədvəldə ilk altılıqda olacaq idmançılar Olimpiadaya birbaşa vəsiqə qazanacaqlar.

## İDMAN ARAŞDIRMALAR MƏRKƏZİ MÜXTƏLİF NOMİNASİYALAR ÜZRƏ İLİN QALİBLƏRİNİ MÜKAFATLANDIRIB

***İdman Araşdırmalar Mərkəzinin "İlin qalibləri-2017" layihəsi çərçivəsində "9 ilə 13" adlı mükafatlandırma mərasimi keçirilib.***

Bakı Olimpiya Stadionunda təşkil olunan tədbirdə ümumilikdə 17 mükafat sahibinə təqdim edilib.

Tədbirdə çıxış edən İdman Araşdırmalar Mərkəzinin sədri Elşən Məmmədov bildirib ki, səsvermədə 60 KİV iştirak edib. Seçim zamanı aktivlik müşahidə olunub. Bu il ilk dəfə olaraq ali nominasiya var. Bu, futbol üzrə ilin baş məşqçisi nominasiyasıdır. Bəzi nominasiyalarda, xüsusən, ilin idmançısı və futbolçusu seçimində ciddi rəqabət oldu. Bəzilərində isə aşkar üstünlük müşahidə olundu.

Tədbirin adının "9 ilə 13" olması təsadüfi deyil. Qurban Qurbanov 9 ildir "Qarabağ"ın baş məşqçisidir, çıxış etdiyi klublarda 9 və 13 nömrəli formaları geyinib. Həmçinin tədbir dekabrın 13-də keçirilir və saat 13:00-da start götürüb.



Daha sonra mükafatlar təqdim edilib. Ali nominasiya üzrə İlin məşqçisi – "Qarabağ" futbol klubunun baş məşqçisi Qurban Qurbanov təltif olunub.



Digər nominasiyalar üzrə qaliblər bunlardır: İlin idman xadimi – "Qarabağ" klubunun vitse-prezidenti Tahir Gözəl, ilin idmançısı – sərbəst güləş üzrə üçqat dünya çempionu Hacı Əliyev, ilin əcnəbi idmançısı – "Qarabağ"ın futbolçusu Dino Ndlovu, ilin futbolçusu – "Qarabağ"ın kapitanı Rəşad Sadıqov, ilin komandası (futbol və digər) "Qarabağ" və şahmat üzrə kişilərdən ibarət Azərbaycan milli komandası, ilin baş məşqçisi (digər növlər üzrə) – cüdo üzrə Azərbaycan milli komandasının baş məşqçisi Fərhad Məmmədov, ilin ən nüfuzlu yarışı – "Bakı 2017" IV İslam Həmrəyliyi Oyunları, ilin yazarı – Komanda.az saytının əməkdaşı Elnur Həmidov, ilin idman qurğusu – Bakı Olimpiya Stadionu, ilin idman verilişi - 3-cü hissə, ilin fəal fotoqrafı - Firudin Səlimov, media ilə sıx əməkdaşlığa görə - Qarabağ" klubunun mətbuat katibi Nurlan İbrahimov.

## DÜNYA ÇEMPİONU OLSALAR, HƏR FUTBOLÇUYA 350 MİN AVRO MÜKAFAT VERİLƏCƏK



***Futbol üzrə Almaniya milli komandası gələn il Rusiyada keçiriləcək dünya çempionatının qalibi olacağı təqdirdə yığmanın hər bir üzvü 350 min avro məbləğində mükafat alacaq.***

Bu barədə Almaniya Futbol Federasiyası açıqlama yayıb.

Açıqlamada 2012-ci və 2016-cı illər Avropa, 2014-cü il dünya çempionatlarındakı kimi, mükafatın məbləğinin millinin mundialda necə çıxış etməsindən asılı olacağı vurğulanıb. Belə ki, komanda dörddəbir finala vəsiqə qazansa hər futbolçuya 75 min, yarımfinal üçün 125 min, final üçün isə 200 min avro məbləğində mükafat nəzərdə tutulub. Əgər Almaniya yığması üçüncü yeri tutarsa futbolçulara 150 min avro məbləğində mükafat veriləcək.

Beləliklə, Almanya milli komandası dünya çempionu adını qazanarsa hər futbolçu ümumilikdə 350 min avro məbləğində mükafata sahib olacaq.

## 2017-Cİ İL FORMULA-1 AZƏRBAYCAN QRAN-PRİSİ İLİN ƏN YAXŞI YARIŞI SEÇİLİB

Baku city circuit

***2017-ci ildə Bakıda keçirilən Formula-1 yarışı dünyanın aparıcı kütləvi informasiya vasitələrində keçirilmiş sorğularda avtoidman azarkeşləri, media nümayəndələri və "Paddok Klub"un təmsilçilərinin əksəriyyəti tərəfindən mövsümün ən həyəcanlı və ən gözlənilməz anlarla dolu yarışı kimi qiymətləndirilib.***

"Bakı Şəhər Halqası" Əməliyyat Şirkətindən (BŞH) bildiriblər ki, yarış zamanı Luis Hamilton ilə Sebastian Fettel arasında baş vermiş toqquşma avtoidman tarixinin ən yaddaqalan hadisələrindən biri olub.

Bakıda təşkil olunan sonuncu yarışda "Red Bull" komandasının pilotu Daniel Rikkardo gözlənilməz şəkildə qələbə qazanmışdı. Onu ardıcıl olaraq "Mercedes" və "Williams" komandalarının pilotları Valteri Bottas ilə Lens Stroll izləmişdilər. Üçüncü pilləyə çıxan Lens Strol bu nəticə ilə Formula-1 tarixində debüt ilində podiuma çıxan ən gənc pilot ünvanına məhz bu yarışda yiyələnmişdi.

Bundan başqa, Formula 1-in təkər təchizatçısı "Pirelli" şirkətinin yayımladığı son hesabatında bildirilir ki, 2017-ci ildə bütün Qran-Prilər arasında Bakı yarışı 42 ötmə ilə ən çox ötmə edilən yarış olub. Həmin ötmələrin birində D.Rikkardo 1-ci döngədə bir dəfəyə üç bolidi keçmişdi və bu, Formula-1 şirkəti tərəfindən minlərlə azarkeş arasında ilin ən yaxşı 10 ötməsi arasında ən çox bəyənilən ötmə olub. "Red Bull"un pilotu da bu ötməni özünün yarış mövsümündə reallaşdırdığı ən yaxşı ötmə kimi qiymətləndirir.

Qeyd edək ki, 2017-ci il Formula-1 Azərbaycan Qran-Prisi bir sıra beynəlxalq media qurumları tərəfindən yarış mövsümünün nəticələrinə dair keçirilən sorğuların əksəriyyətində ilin yarışı adına layiq görülüb.

## KRİŞTİANU RONALDU BEŞİNCİ DƏFƏ "QIZIL TOP" MÜKAFATI QAZANDI

***Portuqaliyanın futbol üzrə yığma komandasının və İspaniyanın "Real Madrid" klubunun hücumçusu Kriştianu Ronaldu beşinci dəfə "Qızıl top" mükafatı alıb.***

Bu barədə mükafatın təsisçisi olan "France Football" jurnalının Twitter səhifəsində məlumat yerləşdirilib. 2017-ci il üçün bu mükafata ümumilikdə 30 futbolçu iddia edib.

Kriştianu Ronaldu "Qızıl top"a 2008, 2013, 2014 və 2016-cı illərdə də layiq görülüb. Bundan bir müddət əvvəl isə FIFA onu ilin ən yaxşı futbolçusu elan etmişdi. İndiyədək "Qızıl top" mükafatına beş dəfə yalnız argentinalı futbolçu Lionel Messi layiq görülmüşdü.



## AĞRIKƏSİCİ DƏRMANLARIN QƏBUL EDİLMƏSİ PİYLƏNMƏ VƏ HİPERTONİYA RİSKİNİ ARTIRIR

***Nyukasl Universitetinin (Böyük Britaniya) alimləri müəyyən ediblər ki, ağrıkəsici dərmanlar insanda piylənmənin və yuxusuzluğun inkişaf etməsinə gətirib çıxarır. Tədqiqatçılar bildirirlər ki, həkimlər belə preparatların qəbul edilməsi ilə bağlı əlavə təsirlərin, o cümlədən gecələr tənəffüsün və yuxunun pozulması hallarının sayının son vaxtlar artdığını qeydə alıblar.***



"MedikForum.ru" saytı xəbər verir ki, tərkibində opiat komponentləri olan ağrıkəsici dərmanların daxilə qəbul edilməsi piylənmə riskini 95 faiz, hipertoniya riskini 63 faiz artırır. Bu səbəbdən xroniki ağrıları aradan qaldırmaq üçün tətbiq edilən ağrıkəsici preparatlar qısa müddətə təyin edilməlidir.

Mütəxəssislər ürəyi xəstə olan 133 min pasiyent haqqında toplanmış məlumatı "UK Biobank" layihəsi çərçivəsində təhlil edərək bu qənaətə gəliblər. Pasiyentləri şərti olaraq iki qrupa ayırıblar: kardiopreparatlarla yanaşı, ağrıkəsici vasitələr qəbul edənlərə və yalnız ürək dərmanları qəbul edənlərə. Sonra onların bədən kütləsi, bel dairəsi və arterial təzyiq göstəriciləri tutuşdurulub.

Alimlər müəyyən ediblər ki, ağrıkəsici dərmanlar içən insanlarda piylənmə və hipertoniya ehtimalı xeyli yüksəkdir.

Tədqiqatçılar deyiblər: "Belə bir fakt böyük narahatlıq doğurur ki, tərkibində opiat komponentləri olan preparatlar getdikcə daha çox təyin olunur. Nəticədə onların qəbul edilməsi ilə bağlı əlavə təsirlərin sayı artır. Pasiyentləri tez-tez ağrıkəsici dərmanları artıq dozada qəbul etdikləri üçün xəstəxanaya yatırırlar. Bundan əlavə, onlar gecələr tənəffüsün pozulmasından və yuxusuzluqdan əziyyət çəkirlər".

## GÖRMƏ QABİLİYYƏTİNİN İTMƏSİNİN GÖZLƏNİLMƏYƏN SƏBƏBLƏRİ AÇIQLANIB

***Nyu-Yorkda yerləşən Montefiore Tibb Mərkəzinin oftalmoloqları qadınların görmə qabiliyyətinin itirilməsi halları ilə daha çox (75 faiz halda) rastlaşdıqlarını bildirib və nəticəsi qlaukomaya gətirib çıxaran gözlənilməyən səbəbləri açıqlayıblar. Həkimlərin fikrincə, bu səbəblərdən biri ultrabənövşəyi şüalardır.***



"Medikforum.ru" saytı xəbər verir ki, oftalmoloqlar gün eynəyindən bütün il ərzində istifadə etməyi məsləhət görürlər. Çünki birbaşa günəş şüaları gözün buynuz qişasına son dərəcə dağıdıcı təsir göstərir. Bununla yanaşı, alimlərin sözlərinə görə gözün tor qişasında ağrı reseptorları olmadığından gözün aldığı termik yanıqlar barədə güman da etmək olmaz.

İnsan yaşa dolduqca görmə qabiliyyətinin zəifləməsinin bir səbəbi də siqaretçəkmə ola bilər. Tədqiqatçılar qeyd edirlər ki, siqaret çəkənlər arasında makulanın yaşlanma degenerasiyasından əziyyət çəkənlər siqaret çəkməyənlərlə müqayisədə iki dəfə çoxdur. Görmə qabiliyyətinin itməsi ilə siqaretçəkmə arasında bağlılıq o qədər güclüdür ki, bunu siqaretçəkmə ilə ağciyərlərin xərçəngi arasında olan bağlılıqla müqayisə etmək olar.

Alimlərin fikrincə, kontakt linzalardan istifadə də risk amillərindən biridir. Bu vərdiş gözün patogen bakteriyalarla yoluxdurma ehtimalını sürətlə artırır, pozulmanı inkişaf etdirir və sonda korluğa gətirib çıxarır. Amerikalı oftalmoloqlar bildirirlər ki, bakteriyaları dezinfeksiyaedici məhlulların köməyi ilə öldürmək mümkün deyil, əgər üzgüçülük zamanı linzadan istifadə olunursa və ya onların konteynerləri axar su ilə yuyulursa, bu hallarda amöb keratiti (gözün buynuz təbəqəsinin iltihabı) ilə yoluxma riski bir neçə dəfə artır.

Bundan başqa, dərman preparatları da görmə qabiliyyətinə və gözün müxtəlif hissələrinə əks-təsir göstərə bilər.



## YAXINLAŞAN ÖLÜMÜN DAHA BİR ƏLAMƏTİ MÜƏYYƏN EDİLİB

***İngiltərənin Ekseter Universitetinin tibb məktəbinin alimləri yaşlı insanlarda ölümdən 14-18 il əvvəl arterial təzyiqin aşağı düşdüyünü müəyyən ediblər.***

"Rossiyskaya qazeta" saytı xəbər verir ki, bu nəticə 60 və daha yuxarı yaşda vəfat etmiş 46 min Böyük Britaniya vətəndaşı haqqında məlumatlarının tədqiqi zamanı əldə olunub. Vəfat etmiş bu insanlar arasında sağlamlığından heç bir şikayəti olmayanlarla yanaşı, ürək-damar xəstəlikləri, demensiya, yüksək təzyiqdən əziyyət çəkənlər də olub.

Müxtəlif təbəqələrdən olan bu insanların hər birində ölümündən təxminən 14 il əvvəl tədricən qan təzyiqinin aşağı düşməsi faktı alimlərin təəccübünə səbəb olub.

Tədqiqatçıların fikrincə alınan nəticələr tibb işçilərinə "yaşlı insanlarda qan təzyiqinin aşağı düşməsinin nəyə işarə etdiyini" anlamağa və müalicə üsulunun düzgün seçilməsinə kömək edəcək.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 3705